# "AFB Bank" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN
# 2025-Cİ İL ÜZRƏ
# İLLİK HESABATI

**Səhmdarların Ümumi Yığıncağının**
**03 Aprel 2026-cı il tarixli iclasının qərarı ilə (Protokol № 01/26) təsdiq edilmişdir**


Bakı şəhəri, AZ 1065, Nəriman Nərimanov pr-ti, 206/466

Tel.: (994 12) 565-65-65; Faks: (994 12) 565-65-75


**İdarə Heyətinin sədri** **Amid Qənbərov**

**Baş maliyyə inzibatçısı** **Lalə Quliyeva**

1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi(VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi:

**Emitentin tam adı: "AFB Bank" Açıq Səhmdar Cəmiyyəti**
**Qısaldılmış adı: "AFB Bank" ASC**
**VÖEN: 1301703781**
**Dövlət qeydiyyatının tarixi: 11.07.2008**
**Dövlət qeydiyyatının nömrəsi: 1301703781**

2. Emitentin hüquqi ünvanı və olduğu yer:

**Hüquqi ünvanı:** AZ 1065, Nəriman Nərimanov pr-ti, 206/466
**Olduğu yer:** AZ 1065, Nəriman Nərimanov pr-ti, 206/466

3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:

**Səhmdarların Ümumi Yığıncağının 15.09.2009-cu il tarixli (Protokol № 04) qərarı ilə Emitentin adı dəyişdirilmiş və 14.10.2009-cu il tarixində AR VN Bakı şəhəri KHŞDQİ-də dövlət qeydiyyatına alınmışdır. Emitentin əvvəlki adı - "AZFİNANSBANK" Açıq Səhmdar Cəmiyyəti olmuşdur (qeydiyyat tarixi – 11.07.2008)**

4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:

**Emitentin hesabat dövrü ərzində heç bir filialı və ya nümayəndəlikləri yaradılmamış və ləğv edilməmişdir**

5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:

**Emitentin hesabat dövrü ərzində törəmə cəmiyyəti yaradılmamış və ləğv edilməmişdir**

6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:

**Emitent hər hansı şirkətlər qrupuna daxil deyil**

7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri: **bank fəaliyyəti**

8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:

**Emitent 28 noyabr 2008-ci il tarixdə 253 sayla lizensiyaların mərkəzi reyestrinə daxil edilmişdir**

**Milli və xarici valyutalarda fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirmək.**
**Bu lisenziyaya əsasən "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş digər fəaliyyət növlərini də həyata keçirə bilər - müddətsiz**

9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:

**depozitlərin qəbul edilməsi, kreditlərin verilməsi, ödəniş kartları, sürətli pul köçürmələri, valyuta mübadiləsi, inkassasiya, sənədli əməliyyatlar, depozit seyfləri (qutuları), rəqəmsal bankçılıq, online ödənişlər**

10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:

**01.01.2025-ci il - 289 nəfər**
**01.04.2025-ci il - 299 nəfər**
**01.07.2025-ci il - 339 nəfər**
**01.10.2025-ci il - 402 nəfər**
**31.12.2025-ci il - 420 nəfər**

11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:

**11.1. MÜŞAHİDƏ ŞURASI**

| s/s | Müşahidə Şurası üzvünün, adı, soyadı, atasının adı | Tutduğu vəzifə |
|---|---|---|
| 1. | Şahverdiyev Vüsal İlqar oğlu | Müşahidə Şurasının sədri |
| 2. | Qurbanov Elnur Məmməd oğlu | Müşahidə Şurasının üzvü |
| 3. | Amanova Şadiyyə Mail qızı | Müşahidə Şurasının üzvü |

### 11.2. İDARƏ HEYƏTİ

| s/s | İdarə Heyəti üzvünün adı, soyadı, atasının adı | Tutduğu vəzifə |
|---|---|---|
| 1. | Qənbərov Amid Mirzəyar oğlu | İdarə Heyətinin sədri |
| 2. | Quliyeva Lalə Vaqif qızı | İdarə Heyətinin üzvü |
| 3. | Manafov Rüfət İntiqam oğlu | İdarə Heyətinin üzvü |

### 11.3. AUDİT KOMİTƏSİ

| s/s | Audit Komitəsi üzvünün adı, soyadı, atasının adı | Tutduğu vəzifə |
|---|---|---|
| 1. | Amanova Şadiyyə Mail qızı | Audit Komitəsinin sədri |
| 2. | Qurbanov Elnur Məmməd oğlu | Audit Komitəsinin üzvü |
| 3. | Ağazadə Samir Seyidəhməd oğlu | Audit Komitəsinin üzvü |

12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı:

**fiziki şəxs olan səhmdarlarının sayı - 3**
**hüquqi şəxs olan səhmdarları yoxdur**

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:

| Fiziki şəxsin adı | Səhmlərin sayı | Emitentin nizamnamə kapita lında payı (faizlə) |
|---|---|---|
| İsmayılov Hikmət Əbuzər oğlu | 55 447 ədəd | 99.6406 % |

14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı): **YOXDUR**

| Hüquqi şəxsin adı | Hüquqi şəxsin olduğu yer və VÖEN-i | ödənilmiş pay | Emitentin nizamnamə kapitalında payı(faizlə) |
|---|---|---|---|
| - | | | |

15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat (yığıncağın keçirilmə tarixi və yeri(ünvan), ümumi yığıncaqda qəbul edilmiş qərarlar):

**"AFB Bank" ASC-nin səhmdarlarının ümumi yığıncağının hesabat dövrü ərzində Baş ofisdə (AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Nəriman Nərimanov pr-ti, 206/466 ünvanında) 4 sayda iclasları keçirilmiş və aşağıdakı qərarlar qəbul edilmişdir:**

| **PROTOKOL № 01/25** | **12.03.2025** |
|---|---|
| **№** | **Gündəlik** |
| **1** | **Bankın Müşahidə Şurasının tərkibində dəyişiklik edilməsi barədə** |

| **PROTOKOL № 02/25** | **04.04.2025** |
|---|---|
| **№** | **Gündəlik** |
| **1** | **Bankın Müşahidə Şurası üzvlərinin əməkhaqqı məbləğinə yenidən baxılması barədə** |

| **PROTOKOL № 03/25** | **20.05.2025** |
|---|---|
| **№** | **Gündəlik** |
| **1** | **"AFB Bank" ASC-nin 31 dekabr 2024-cü il tarixinə bitən maliyyə ili üzrə kənar auditor tərəfindən təsdiqlənmiş Maliyyə Hesabatının Auditor Rəyi ilə birlikdə təsdiq edilməsi barədə** |
| **2** | **Emitent "AFB Bank" ASC-nin 2024-cü il üzrə İllik İdarəetmə Hesabatının təsdiq edilməsi haqqında** |
| **3** | **Bankın Müşahidə Şurasının tərkibində dəyişiklik edilməsi barədə** |

| **PROTOKOL № 04/25** | **02.06.2025** |
|---|---|
| **№** | **Gündəlik** |
| **1** | **2024-cü maliyyə ili üzrə xalis mənfəətin bölüşdürülməsi barədə** |

16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):

**Emitentin 2014-cü il tarixində həyata keçirdiyi emissiya:**

16.1.1. İnvestisiya qiymətli kağızın növü və forması;

**- Adi, adlı sənədsiz səhmlər**

16.1.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

**- 25 İyun 2014-cü il, AZ1005008599**

16.1.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;

**- 47 202 ədəd, 1 265 AZN**

16.1.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;

**- 59 710 530 AZN**

16.1.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);

**- dövriyyədə olan ümumi sayı 55 647 (əlli beş min altı yüz qırx yeddi) ədəd adi səhmlərdən bir səhmə düşən dividend məbləği 73.82 (yetmiş üç manat 82 qəpik) manat olmaqla, cəmi 4 107 861.54 (dörd milyon bir yüz yeddi min səkkiz yüz altmış bir manat 54 qəpik) manat dividend ödənilmişdir**

16.1.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;

**- istiqraz emissiyası həyata keçirilməmişdir**

16.1.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer(olduqda);

- **"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti, AZ 1022 Bakı şəhəri, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə 102A**

**Emitentin 2014-cü il tarixində həyata keçirdiyi emissiya:**

16.2.1. İnvestisiya qiymətli kağızın növü və forması;

- **Adi, adlı sənədsiz səhmlər**

16.2.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

- **02 Sentyabr 2014-cü il, AZ1005008599**

16.2.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;

- **8 445 ədəd, 1 265 AZN**

16.2.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;

- **10 682 925 AZN**

16.2.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);

- **dövriyyədə olan ümumi sayı 55 647 (əlli beş min altı yüz qırx yeddi) ədəd adi səhmlərdən bir səhmə düşən dividend məbləği 73.82 (yetmiş üç manat 82 qəpik) manat olmaqla, cəmi 4 107 861.54 (dörd milyon bir yüz yeddi min səkkiz yüz altmış bir manat 54 qəpik) manat dividend ödənilmişdir**

16.2.6. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;

- **istiqraz emissiyası həyata keçirilməmişdir**

16.2.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer(olduqda);

- **"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti, AZ 1022 Bakı şəhəri, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə 102A**

**Emitentin 2025-ci il tarixində həyata keçirdiyi I emissiya:**

16.3.1. İnvestisiya qiymətli kağızın növü və forması;

**- Faizli, təmin edilməmiş, adlı sənədsiz istiqrazlar**

16.3.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

**- 30 Sentyabr 2025-ci il, AZ2001008591**

16.3.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;

**- 50 000 ədəd, 100 AZN**

16.3.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;

**- 5 000 000 AZN**

16.3.5. faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;

**- 13.00%**

16.3.6. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer(olduqda);

- **"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti, AZ 1022 Bakı şəhəri, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə 102A**

17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar (əqdin məbləği, hesabat tarixinə əqdin ödənilməmiş hissəsi):

**Belə əqdlər bağlanmamışdır**

18. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi: **03.04.2026-cı il**
19. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat:

**Bankın rəsmi internet səhifəsi (www.afb.az)**

# “AFB BANK”
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

# “AFB BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 1-3 |
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-95 |

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

**T:** +994 (12) 404 7 666
**F:** +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"AFB Bank" Açıq Səhmdar Cəmiyyətin Səhmdarları, Müşahidə Şurası və İdarə Heyətinə:

***Rəy***

Biz "AFB Bank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatların qısa xülasəsi də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Bankın 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Bankdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas Audit Məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

**Əsas audit məsələsi**

**Müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı**

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlər cəmi aktivlərin 68%-ni təşkil edir və müntəzəm olaraq təxmin edilən və istifadə edilən fərziyyələrə qarşı həssas olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qiymətləndirilir.

ASSURANCE ADVISORY TAX LEGAL

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını (DE), defolt vəziyyətində riskə məruz qalmanı (DVRMQ) və defolt zamanı yaranan zərəri (DZYZ) müəyyən etmək üçün müşahidə edilən tarixi məlumatları, cari iqtisadi vəziyyəti və mövcud proqnozlaşdırıcı məlumatları nəzərə alaraq əhəmiyyətli mülahizələri və qiymətləndirmə üsullarını tətbiq etməyi tələb edir.

Müştərilərə verilmiş kreditlər üzrə kredit zərəri ehtiyatı Bankın maliyyə aktivlərinin qalıqlarının əhəmiyyətli olması və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS üzrə EOKZ məbləğinin hesablanmasının mürəkkəbliyi və mülahizələrə görə əsas audit məsələsi hesab edilir.

Maliyyə hesabatlarına daxil edilən "Əhəmiyyətli uçot prinsiplərinə dair məlumat" adlı 2 saylı Qeyd, "Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr" adlı 3 saylı Qeyd, "Müştərilərə verilmiş kreditlər" adlı 10 saylı Qeyd və "Risklərin idarə edilməsi, korporativ idarəçilik və daxili nəzarət" adlı 30 saylı Qeyd ehtiyatlar üzrə ətraflı məlumat təqdim edir.

**Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?**

Biz "Maliyyə Alətləri" adlı 9 saylı MHBS-nin tələblərinə uyğunluğun EOKZ qiymətləndirməsi ilə bağlı Bankın metodologiyası və daxili qaydalarının əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi cəlb etmişik.

Rəhbərlik tərəfindən irəli sürülən peşəkar mülahizə və fərziyyələrin EOKZ ehtimalları üzrə ehtiyatlar ilə uyğunluğunu təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirmişik:

Biz, müştərilərə verilmiş kreditlər üzrə DE, DZYZ və DVRMQ hesablanması, gecikmələrin və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında əks olunması və kreditlərin müvafiq mərhələlərə bölüşdürülməsi üçün məlumatların düzgünlüyünü sınaqdan keçirmişik. Biz daxil edilmiş məlumatları nümunə əsasında dəstəkləyici sənədlərlə uzlaşdırmışıq.

Biz həmçinin maliyyə hesabatlarının açıqlanmasının Bankın kredit riskinə məruz qalmasını lazımi şəkildə əks etdirib-etdirmədiyini qiymətləndirmişik.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün şəkildə təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Bankı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Bankın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Bankın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Bankın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında Audit komitəsinə məlumat veririk.

Biz həmçinin Audit Komitəsinə bəyan edirik ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq hallarda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik.

Biz Audit Komitəsinin nəzərinə çatdırılmış məsələlərdən cari dövr üzrə konsolidə edilmiş maliyyə hesabatlarının ən əhəmiyyətli olanlarını və bu səbəbdən əsas audit məsələləri hesab olunanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verilmənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Baker Tilly Azerbaijan

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

## "AFB BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 71,938 | 49,037 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında saxlanılan məcburi ehtiyatlar | 7 | 6,969 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 8 | 10,016 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 9 | 503 | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 10, 26 | 282,612 | 174,212 |
| Əmlak və avadanlıqlar | 11 | 24,656 | 23,016 |
| Qeyri-maddi aktivlər | 11 | 2,713 | 2,190 |
| İnvestisiya mülkiyyəti | 12 | 4,987 | 5,107 |
| Digər maliyyə aktivləri | 13 | 8,451 | 6,955 |
| Digər aktivlər | 13 | 4,785 | 5,659 |
| **Cəmi aktivlər** | | **417,630** | **292,283** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 14 | 31,416 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 15, 26 | 224,881 | 130,443 |
| Müddətli borc vəsaitləri | 16 | 71,979 | 76,462 |
| Buraxılmış borc qiymətli kağızları | 17 | 5,116 | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 25 | 1,118 | 1,755 |
| Digər maliyyə öhdəlikləri | 18 | 6,439 | 5,371 |
| Digər öhdəliklər | 18 | 1,594 | 832 |
| **Cəmi öhdəliklər** | | **342,543** | **215,282** |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 19 | 70,393 | 70,393 |
| Bölüşdürülməmiş mənfəət | | 4,694 | 6,608 |
| **Cəmi kapital** | | **75,087** | **77,001** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **417,630** | **292,283** |

**İdarə Heyətinin adından:**

AZƏRBAYCAN RESPUBLİKASI • Azerbaijan Republic Open Joint Stock Company • AFB BANK • AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# “AFB BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 21, 26 | 27,471 | 23,993 |
| Faiz xərci | 21, 26 | (9,484) | (5,677) |
| **Xalis faiz gəliri** | | **17,987** | **18,316** |
| Haqq və komissiya gəlirləri | 22, 26 | 6,693 | 6,951 |
| Haqq və komissiya xərci | 22 | (6,118) | (6,310) |
| **Xalis haqq və komissiya gəlirləri** | | **575** | **641** |
| Xarici valyuta ilə alqı-satqı üzrə xalis gəlir | | 1,046 | 1,235 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir/(zərər) | | 12 | (32) |
| Digər gəlirlər, xalis | | 1,348 | 161 |
| **Əməliyyat gəliri** | | **20,968** | **20,321** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası/(tutulması) | 23 | 2,395 | (111) |
| Ümumi və inzibati xərclər | 24, 26 | (19,172) | (14,020) |
| Müsadirə edilmiş aktivlərin ədalətli dəyəri üzrə dəyişiklik | 13 | (1,382) | (197) |
| Kredit öhdəlikləri və zəmanətlər üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | | - | 67 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **2,809** | **6,060** |
| Mənfəət vergisi xərci | 25 | (615) | (1,952) |
| **İl üzrə xalis mənfəət** | | **2,194** | **4,108** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **2,194** | **4,108** |
| **Səhm üzrə mənfəət** | | | |
| Əsas və azaldılmış mənfəət (AZN ilə ifadə edilmiş) | 20 | 39.43 | 73.82 |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **70,393** | **10,071** | **80,464** |
| İl üzrə cəmi məcmu gəlir | - | 4,108 | 4,108 |
| Elan edilmiş dividendlər | - | (7,571) | (7,571) |
| **31 dekabr 2024-cü il** | **70,393** | **6,608** | **77,001** |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,194 | 2,194 |
| Elan edilmiş dividendlər | - | (4,108) | (4,108) |
| **31 dekabr 2025-ci il** | **70,393** | **4,694** | **75,087** |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# “AFB BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ** | | | |
| Alınmış faiz | | 27,527 | 23,029 |
| Ödənilmiş faiz | | (8,759) | (4,919) |
| Alınmış haqq və komissiyalar | | 6,693 | 6,951 |
| Ödənilmiş haqq və komissiyalar | | (6,118) | (6,310) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (15,325) | (13,400) |
| Xarici valyuta ilə alqı-satqı üzrə xalis gəlir | | 1,046 | 1,235 |
| Digər alınmış gəlirlər, xalis | | 354 | 119 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | **5,418** | **6,705** |
| **Əməliyyat aktivlərində (artma)/azalma** | | | |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | | (730) | 1,311 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | | (6,534) | 210 |
| Müştərilərə verilmiş kreditlər | | (106,932) | (11,842) |
| Digər maliyyə aktivləri | | (668) | (1,434) |
| Digər aktivlər | | 966 | 5,805 |
| **Əməliyyat öhdəliklərində artma/(azalma)** | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | | 30,522 | 417 |
| Müştərilərə ödəniləcək vəsaitlər | | 93,984 | (39,526) |
| Digər maliyyə öhdəlikləri | | (327) | 1,326 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə olunan) pul vəsaitlərinin hərəkəti** | | **15,699** | **(37,028)** |
| Ödənilmiş mənfəət vergisi | | (1,481) | (2,445) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə olunan) pul vəsaitlərinin hərəkəti** | | **14,218** | **(39,473)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər üzrə ödənişlər | | (3,334) | (1,364) |
| İnvestisiya qiymətli kağızlarının geri alınması və ya satışından daxilolmalar | | 15,463 | 56,929 |
| İnvestisiya qiymətli kağızları üzrə ödənişlər | | - | (31,216) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satışından daxilolmalar | | - | 42 |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan pul vəsaitlərinin hərəkəti** | | **12,129** | **24,391** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ** | | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 16 | 27,762 | 17,727 |
| Müddətli borc vəsaitlərinin qaytarılması | 16 | (32,228) | (11,628) |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 17 | 5,000 | - |
| İcarə öhdəliklərinin əsas hissəsinin qaytarılması | 18 | (375) | (300) |
| Səhmdarlara ödənilmiş dividendlər | 19 | (4,108) | (7,571) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə olunan pul vəsaitlərinin hərəkəti** | | **(3,949)** | **(1,772)** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Xarici valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyuta ilə saxlanılan pul vəsaitləri və onların ekvivalentlərinin qalıqlarına təsiri | | 503 | (150) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis artma/(azalma) | | 22,901 | (17,004) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 6 | 49,037 | 66,041 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 6 | 71,938 | 49,037 |

**İdarə Heyətinin adından:**

**Amid Qənbərov**
**İdarə Heyətinin sədri**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Əli Muxtarov**
**Maliyyə strukturunun direktoru**

16 mart 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-95-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

**Bank və onun əsas fəaliyyəti**

“AFB Bank” ASC (“Bank”) Azərbaycan Respublikasında təsis olunmuşdur və Azərbaycan Respublikasında fəaliyyət göstərir. Bank Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmışdır və səhmlərlə məhdudlaşdırılmış açıq səhmdar cəmiyyətidir. Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və pərakəndə bankçılıq əməliyyatlarının aparılmasından ibarətdir. Bank Azərbaycan Respublikasının Mərkəzi Bankı (“ARMB”) tərəfindən verilmiş 28 noyabr 2008-ci il tarixli tam bank lisenziyası əsasında 16 fevral 2009-cu il tarixindən fəaliyyət göstərir.

Bankın hüquqi ünvanı Nəriman Nərimanov prospekti 206, AZ1065, Bakı, Azərbaycan Respublikasıdır.

31 dekabr 2025-ci il tarixinə Bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən 7 filialı və 4 şöbəsi (31 dekabr 2024-cü il: 6 filial və 4 şöbə) olmuşdur.

Bankın 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə əməkdaşlarının sayı müvafiq olaraq 420 nəfər və 289 nəfər olmuşdur.

Bankın son nəzarət edən tərəfi, rezident fiziki şəxs cənab Hikmət İsmayılovdur.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Bankın səhmdarları aşağıdakı şəxslər olmuşdur:

| | 31 dekabr 2025-ci il, % | 31 dekabr 2024-cü il, % |
|---|---|---|
| Hikmət İsmayılov | 99.64 | 99.64 |
| Cəmil Muradov | 0.18 | 0.18 |
| Toğrul Hacıyev | 0.18 | 0.18 |
| **Cəmi** | **100.00** | **100.00** |

**Bankın əməliyyat mühiti**

Bank öz əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir. Bank Azərbaycanın inkişaf etməkdə olan bazar xüsusiyyətlərini əks etdirən iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafda olmasına baxmayaraq, mütəmadi olaraq yeni şərhlərə və dəyişikliklərə məruz qalır, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Təchizat zəncirlərindəki əvvəlki pozulmalar, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə fonunda yaranan geosiyasi gərginliklər və qlobal tələbat strukturundakı dəyişikliklərdən sonra qlobal iqtisadiyyat 2025-ci il ərzində uyğunlaşma prosesini davam etdirmişdir. Əmtəə qiymətlərinin geosiyasi hadisələrə və qlobal ticarət axınlarındakı dəyişikliklərə həssas qalmasına baxmayaraq, əvvəlki illərlə müqayisədə inflyasiya təzyiqləri zəifləmişdir.

2025-ci il ərzində hökumət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, sabit məzənnə rejimi və kifayət qədər xarici valyuta ehtiyatlarının mövcudluğu fonunda Azərbaycan iqtisadiyyatı ümumi makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

İlkin məlumatlara əsasən, 2025-ci ildə Azərbaycanda ÜDM 2024-cü illə müqayisədə 1.4% artaraq 129.1 milyard AZN-ə (75.9 milyard ABŞ dollarına) çatmışdır. Neft və qaz sektorunda yaradılmış əlavə dəyər 1.6% azaldığı halda, qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 2.7% artmışdır.

2025-ci il ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 48.9 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 24.5 milyard ABŞ dolları ixrac olunan malların, 24.38 milyard ABŞ dolları isə idxal olunan malların payına düşərək, 0.12 milyard ABŞ dolları məbləğində müsbət ticarət saldosu formalaşmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının (ARMB) məlumatına əsasən 2025-ci ilin yanvar-dekabr ayları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 105.6% təşkil etmişdir. ARMB monetar siyasətinin idarə edilməsi və Azərbaycan manatının sabitliyinin təmin edilməsi məqsədilə fəaliyyətini davam etdirmişdir. Qlobal inflyasiya tendensiyalarına uyğun olaraq uçot dərəcəsi tənzimlənmiş və 31 dekabr 2025-ci il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 7.0% müəyyən edilmişdir (31 dekabr 2024-cü il: 7.25%).

31 dekabr 2025-ci il tarixinə Azərbaycanın strateji xarici valyuta ehtiyatları, 31 dekabr 2024-cü il tarixinə 71 milyard ABŞ dolları ilə müqayisədə 83.5 milyard ABŞ dolları təşkil edərək Azərbaycan manatının sabitliyi və bütövlükdə makroiqtisadi dayanıqlılığı dəstəkləyən əhəmiyyətli artımı əks etdirmişdir.

2024-cü il üzrə aktiv 19,899 min plastik kart sayı ilə müqayisədə 2025-ci ilin dekabr ayının sonuna qədər aktiv plastik kartların sayı 21,980 min ədəd olmaqla tarixən ən yüksək səviyyəyə yüksəlmişdir.

“Fitch” reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta kredit reytinqini “BBB-” səviyyəsində, 2025-ci il üzrə sabit proqnozla qiymətləndirmişdir. Bu qiymətləndirmə maliyyə göstəriciləri, güclü xarici balans mövqeyi və əhəmiyyətli dövlət aktivlərini əks etdirir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Bankın əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Bankın maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdıra bilmir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

**Uyğunluq haqqında bəyanat**

Hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc edilmiş MHBS Mühasibat Uçotu Standartları (“MHBS Mühasibat Uçotu Standartları”) əsasında hazırlanmışdır.

**Fasiləsizlik prinsipi**

Hazırkı maliyyə hesabatları Bankın fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Bank yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Bankın ləğvinə nə niyyət, nə də zərurət olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət çərçivəsində Bankın aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Bankın fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipinə dair qiymətləndirməsi, müəyyən bir müddətdə, mahiyyət etibarilə qeyri-müəyyən olan hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Təqdimatın digər əsasları**

Bu maliyyə hesabatları əksi göstərilmədiyi halda min Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, müəyyən maliyyə alətlərinin ədalətli dəyəri ilə ölçülməsi istisna olmaqla tarixi dəyər konvensiyasına əsasən hazırlanmışdır.

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız Bank uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni olaraq tətbiq olunan hüquqa malik olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud eyni vaxtda aktivin satılması və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda əvəzləşdirilir, xalis məbləğ isə maliyyə vəziyyəti haqqında hesabatda açıqlanır. Bank gələcək hadisədən asılı olmadıqda və biznesin normal gedişində və Bankın və bütün kontragentlərinin defolta uğraması, müflisləşməsi və ya iflası zamanı tətbiq oluna bildikdə, əvəzləşdirmək hüququna malikdir.

**Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri aşağıda göstərildiyi kimi ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyərin ən yaxşı əlaməti fəal bazardakı dəyəridir. Fəal bazar, qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modeli, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellər kimi qiymətləndirmə üsullarından istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə edilə bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (əgər varsa verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi üsulu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Cari dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilkin olaraq ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür.

İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yaranan mənfəət və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Bankın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- maliyyə aktivi müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- maliyyə aktivi həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Alqı-satqı üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Bank ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də təsnif edilir.

Bununla yanaşı, ilkin tanınma zamanı Bank amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi o halda təsnif edə bilər ki, bu, yarana biləcək uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Bank maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş qaydalar və hədəflər, həmin qaydaların təcrübədə tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfel göstəricilərinin necə qiymətləndirilməsi və Bankın rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesi idarə edən şəxslərin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyətinə dair ehtimallar. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Bankın hədəflərinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsinin bir hissəsi olaraq nəzərə alınır.

Alqı-satqı məqsədləri üçün saxlanılan və ya fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilən maliyyə aktivləri MZVƏD-də qiymətləndirilir, belə ki, onlar nə müqavilə üzrə pul vəsaitlərinin toplanması, nə də həm müqavilə üzrə pul vəsaitlərinin toplanması və maliyyə aktivlərinin satışı üçün saxlanılır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün “əsas məbləğ” dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. “Faiz” dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Bank alətin müqavilə şərtlərini nəzərə alır. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edir. Qiymətləndirmə zamanı Bank aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Bankın iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər (məs. reqressiz aktivlər); və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə alətlərinin yenidən təsnifləşdirilməsi**

Maliyyə aktivləri Bankın maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir.

Bank maliyyə aktivlərini idarə etməsi üzrə biznes modelini dəyişdikdə maliyyə aktivlərini də yenidən təsnifləşdirməlidir. Belə dəyişikliklərin nadir hallarda baş verəcəyi gözlənilir. Belə dəyişikliklər Bankın rəhbərliyi tərəfindən xarici və daxili dəyişikliklər nəticəsində müəyyən edilir və Bankın əməliyyatları üçün əhəmiyyətli və kənar tərəflərə nümayiş etdirilə bilən şəkildə olmalıdır. Müvafiq olaraq Bankın biznes modelində dəyişiklik yalnız Bank əməliyyatları üçün əhəmiyyətli olan fəaliyyətə başladıqda və ya belə fəaliyyətə xitam verdikdə baş verir; məsələn, Bank hər hansı biznes xətti əldə etdikdə, satdıqda və ya xitam verdikdə.

**Maliyyə aktivlərinin dəyişdirilməsi və tanınmasının dayandırılması**

Maliyyə aktivinin şərtləri dəyişərsə, Bank dəyişmiş aktiv üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə dəyişib-dəyişmədiyini qiymətləndirir. Pul vəsaitlərində əhəmiyyətli fərqlər olduğu təqdirdə (“əhəmiyyətli dəyişiklik ” adlandırılan) ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə üzrə hüquqların vaxtı keçmiş sayılır. Belə olan halda ilkin maliyyə aktivinin tanınması dayandırılır və yeni maliyyə aktivi müvafiq əməliyyat xərcləri daxil olmaqla ədalətli dəyərdə tanınır. Dəyişikliklə bağlı istənilən haqların uçotu aşağıdakı şəkildə aparılır:

- yeni aktivin ədalətli dəyərinin müəyyən edilməsi haqları və müvafiq əməliyyat xərclərinin ödəniş haqları aktivin ilkin qiymətləndirilməsinə daxil edilir; və
- digər haqlar tanınmanın dayandırılması üzrə gəlir və ya zərərin bir hissəsi kimi mənfəət və ya zərərdə tanınır.

Mövcud maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üzrə pul vəsaitlərində dəyişikliklər mövcud müqavilə şərtlərindən qaynaqlandığı təqdirdə dəyişiklik sayılmır, məsələn, kredit sövdələşməsi Bankdan tələb etdiyi təqdirdə ARMB-nin əsas faiz dərəcələrindəki dəyişikliklərə görə Bankın faiz dərəcələrinə tətbiq etdiyi dəyişikliklər.

Bank dəyişikliyin əhəmiyyətli olub-olmadığına, yəni ilkin maliyyə aktivi və dəyişikliyə uğramış və ya əvəzlənmiş maliyyə aktivi üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə fərqləndiyinə dair kəmiyyət və keyfiyyət qiymətləndirməsi aparır. Bank kəmiyyət və keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olub-olmadığını növbəti ardıcıllıqda qiymətləndirir: keyfiyyət amilləri, kəmiyyət amilləri, keyfiyyət və kəmiyyət amillərinin birgə təsiri. Pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndiyi təqdirdə ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə hüquqlarının vaxtı bitmiş sayılır. Bu qiymətləndirmə zamanı Bank maliyyə öhdəliklərinin tanınmasının dayandırılması təlimatına əsaslanır.

Bank aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olduğu qənaətinə gəlir:

- maliyyə aktivinin valyutasının dəyişməsi;
- girov və ya digər kredit keyfiyyətinin artırılmasında dəyişiklik;
- maliyyə aktivinin şərtlərində əsas məbləğ və faiz ödəmələri YƏMFÖ meyarına uyğunsuzluqla nəticələnən dəyişiklik (məs., konvertasiya funksiyasının əlavə edilməsi).

Pul axınlarının modifikasiyası borc alanın maliyyə çətinlikləri ilə üzləşdiyi zaman baş verərsə, bu zaman modifikasiya, tamamilə fərqli şərtlər ilə yeni aktiv yaratmaq məqsədilə deyil, ilkin müqavilə şərtlərinin mümkün qədər bərpa edilməsi məqsədilə həyata keçirilir. Bank maliyyə aktivini pul vəsaitlərinin bağışlanması ilə nəticələnəcək şəkildə dəyişməyi planlaşdırdıqda ilkin olaraq aktiv qisminin dəyişiklikdən əvvəl silinib-silinməyəcəyini nəzərə alır (borcların silinməsi siyasəti aşağıda təqdim edilmişdir). Bu yanaşma kəmiyyət qiymətləndirməsinə təsir göstərir və belə olan hallarda tanınmanın dayandırılması meyarlarının heç də həmişə nəzərə alınmadığını göstərir. Daha sonra Bank dəyişikliyin əhəmiyyətli olub-olmadığına dair keyfiyyət qiymətləndirməsi aparır.

Amortizasiya edilmiş dəyərdə və ya DMGVƏD-də ölçülən maliyyə aktivində dəyişiklik maliyyə aktivinin tanınmasının dayandırılması ilə nəticələnmədikdə Bank ilk öncə aktivin ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə maliyyə aktivinin ümumi balans dəyərini təkrar hesablayır və alınmış düzəlişi mənfəət və ya zərərdə dəyişiklik üzrə gəlir və ya zərər kimi tanıyır. Dəyişən dərəcəli maliyyə aktivlərində dəyişiklik üzrə gəlir və ya zərəri hesablamaq üçün istifadə edilən ilkin effektiv faiz dərəcəsinin dəyişiklik anında mövcud bazar şərtlərini əks etdirməsi məqsədilə düzəlişlər edilir. Dəyişikliyin bir hissəsi olan istənilən ödənilmiş xərclər və alınan haqlar dəyişiklik edilmiş maliyyə aktivinin ümumi balans dəyərində əks etdirilir və dəyişdirilmiş maliyyə aktivinin qalan müddəti boyu amortizasiya edilir.

Dəyişiklik borcalanın maliyyə çətinlikləri ilə bağlı həyata keçirildiyi təqdirdə gəlir və ya zərər dəyərsizləşmə zərərləri ilə birlikdə təqdim edilir. Digər hallarda isə effektiv faiz üsulundan istifadə etməklə hesablanmış faiz gəliri kimi təqdim edilir.

Borc alanın kredit məbləğini vaxtından əvvəl əhəmiyyətli cəriməyə məruz qalmadan faizsiz ödəmək seçimi olduğu sabit dərəcəli kreditlər üçün Bank faiz dərəcəsini dəyişən dərəcəli maliyyə alətləri üzrə təlimatdan çıxış edərək cari bazar dərəcəsinə uyğun dəyişir. Bu o deməkdir ki, effektiv faiz dərəcəsinə də gözləntilərə uyğun düzəlişlər edilir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Bank MZVƏD ilə qiymətləndirilməyən aşağıdakı maliyyə alətləri üzrə ehtimal olunan kredit zərərləri (EOKZ) üçün zərər ehtiyatlarını tanıyır:

- borc alətləri olan maliyyə aktivləri;
- verilən kredit öhdəlikləri.

Bank zərər ehtiyatlarını, 12 aylıq EOKZ kimi hesablanan aşağıdakılar istisna olmaqla, ömürlük EOKZ məbləğinə bərabər qiymətlədirir:

- hesabat tarixində kredit riski aşağı müəyyən edilən borc investisiya qiymətli kağızları; və
- ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artmayan digər maliyyə alətləri.

***EOKZ-nin ölçülməsi***

EOKZ kredit zərərlərinin ehtimal əsasında ölçülən qiymətləndirilməsidir. O aşağıdakı şəkildə ölçülür:

- hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün çatışmayan pul vəsaitlərinin cari dəyəri (yəni müqavilə əsasında müəssisəyə ödənilməli pul vəsaitləri ilə Bankın əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərq);
- hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə hesablanmış gələcək pul axınları arasındakı fərq;
- istifadə edilməmiş kredit öhdəlikləri: öhdəlik istifadə edildikdə müqavilə üzrə Banka ödənilməli pul vəsaitləri ilə Bankın əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərqin cari dəyəri.

***Restrukturizasiya edilmiş maliyyə aktivləri***

Maliyyə aktivinin şərtləri yenidən razılaşdırıldıqda və ya dəyişdirildikdə və ya mövcud maliyyə aktivi borcalanın maliyyə çətinlikləri ilə üzləşməsi səbəbindən yenisi ilə əvəzləndikdə, maliyyə aktivinin tanınmasının dayandırılıb-dayandırılmaması dəyərləndirilir və EOKZ aşağıdakı kimi ölçülür:

- ehtimal olunan restrukturizasiya mövcud aktivin tanınmasının dayandırılmasına səbəb olmadıqda maliyyə aktivinin modifikasiyası nəticəsində yaranacağı ehtimal olunan pul axınları, mövcud aktiv üzrə çatışmayan pul vəsaitlərinin hesablanmasına daxil edilir.
- ehtimal olunan restrukturizasiya mövcud aktivin tanınmasının dayandırılmasına səbəb olduqda, yeni aktivin ehtimal olunan ədalətli dəyəri, mövcud maliyyə aktivinin tanınmasının dayandırılması tarixində maliyyə aktivi üzrə yaranan yekun pul axınları olaraq nəzərdən keçirilir. Bu məbləğ mövcud maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə, mövcud maliyyə aktivi üzrə tanınmanın dayandırılmasının gözlənilən tarixdən hesabat tarixinədək diskont edilən çatışmayan pul vəsaitlərinin hesablanmasına əlavə edilir.

***Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri***

Hər hesabat tarixində Bank amortizasiya edilmiş dəyərdə hesablanmış maliyyə aktivlərinin, DMGVƏD-də qeydə alınan borc maliyyə aktivlərinin və maliyyə icarəsi üzrə debitor borclarının kredit üzrə dəyərsizləşməsini qiymətləndirir (bu aktivlər “3-cü Mərhələ maliyyə aktivləri” adlanır). Maliyyə aktivi üzrə proqnozlaşdırılan gələcək pul axınlarına mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə maliyyə aktivi “kredit üzrə dəyərsizləşmiş” sayılır.

Maliyyə aktivinin kredit üzrə dəyərsizləşdiyinin sübutuna aşağıdakı müşahidə edilə bilən məlumatlar daxildir:

- borcalan və ya emitentin mühüm maliyyə çətinliyi yaşaması;
- müqavilə şərtinin pozulması, məsələn, defolt və ya gecikdirmə;
- Bank tərəfindən Bankın dəyişməyəcəyi şərtlərlə kredit və ya avansın restrukturizasiyası;
- borcalanın müflis olacağı və ya maliyyə-təşkilati strukturunun dəyişəcəyi ehtimal edildikdə; və ya
- maliyyə çətinlikləri səbəbindən qiymətli kağızlar üçün fəal bazarın olmaması.

Borcalanın vəziyyətinin pisləşməsinə görə şərtləri yenidən razılaşdırılmış kredit, müqavilə üzrə pul vəsaitlərinin ödənilməyəcəyi riski əhəmiyyətli dərəcədə azaldığı və dəyərsizləşmənin başqa əlamətləri olmadığı hallar istisna olmaqla, kredit üzrə dəyərsizləşmiş sayılır. Əlavə olaraq, ödənişi 90 gündən çox gecikdirilmiş pərakəndə kredit, dəyərsizləşmiş sayılır.

Dövlət borcuna investisiyanın kredit üzrə dəyərsizləşmiş olub-olmadığını qiymətləndirərkən Bank aşağıdakı amilləri nəzərə alır:

- istiqraz üzrə gəlirlərdə əks olunan kredit qabiliyyətinin bazar qiymətləndirməsi.
- kredit qabiliyyətinə reytinq agentliklərinin qiyməti.
- yeni kreditlərin verilməsi üçün ölkənin kapital bazarlarına çıxış qabiliyyəti.
- borc verənin könüllü və ya icbari borc bağışlama nəticəsində zərər çəkə biləcəyi borc restrukturizasiyası ehtimalı.
- həmin ölkəyə “son ümid borcverən” kimi lazımi dəstəyi göstərmək üçün beynəlxalq dəstək mexanizmlərinin olması və belə mexanizmlərdən istifadə ilə bağlı dövlət və agentliklərin niyyətinin əks olunduğu ictimai bəyannamələr. Bura həmin mexanizmlərin dərinliyinin və siyasi niyyətdən asılı olmayaraq tələb olunan meyarlara cavab vermək qabiliyyətinin olduğunun və ya olmadığının qiymətləndirilməsi daxildir.

***Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (SƏKD)***

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (SƏKD) ilkin tanınma zamanı dəyərsizləşmiş maliyyə aktivləridir. SƏKD aktivləri üzrə ömürlük EOKZ ilkin tanınma zamanı effektiv faiz dərəcəsinin hesablanması zamanı nəzərə alınır. Nəticə etibarilə SƏKD aktivləri ilkin tanınma zamanı dəyərsizləşmə üzrə ehtiyat ehtiva etmir. İlkin tanınmadan sonra zərər ehtiyatı kimi tanınan məbləğ aktivin ilkin tanınmasından sonra ömürlük EOKZ-də dəyişikliklərə bərabərdir.

**Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ ehtiyatının təqdimatı**

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı şəkildə təqdim edilir:

- amortizasiya dəyərində ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılması kimi;
- kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri: ümumi olaraq, ehtiyat kimi;
- maliyyə aləti həm istifadə edilmiş, həm də edilməmiş komponentlərdən ibarət olduqda və Bank kredit öhdəliyi komponenti üzrə EOKZ-ni istifadə edilmiş komponentdən ayrı müəyyən edə bilmədikdə: Bank hər iki komponent üçün zərər ehtiyatını birgə təqdim edir. Birləşdirilmiş məbləğ istifadə edilmiş kredit komponentinin ümumi balans dəyərindən tutulma kimi təqdim edilir. İstifadə edilmiş kredit komponentinin ümumi balans dəyərindən sonra qalan zərər ehtiyatı ehtiyat kimi təqdim edilir; və
- DMGVƏD-də ölçülən borc alətləri: bu aktivlərin balans dəyəri onların ədalətli dəyəri olduğu üçün maliyyə vəziyyəti haqqında hesabatda heç bir zərər ehtiyatı tanınmır. Bununla belə, zərər ehtiyatı ədalətli dəyər ehtiyatında açıqlanır və tanınır.

**Silinmələr**

Kreditlər və borc qiymətli kağızları maliyyə aktivlərini tam və ya qismən bərpa etmək üçün əsaslı gözlənti olmadığı təqdirdə tam və ya qismən silinir. Bu adətən Bank borcalanın silinməsi nəzərdə tutulan məbləği ödəmək üçün kifayət qədər pul vəsaiti yaradacaq aktivləri və ya gəlir mənbəyinin olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə fərdi aktiv səviyyəsində həyata keçirilir.

Silinmiş məbləğlərin bərpası mənfəət və ya zərər və digər məcmu gəlir hesabatında "maliyyə alətlərinin dəyərsizləşməsi zərərləri"nə daxil edilir.

Silinmiş maliyyə aktivləri ödənilməli məbləğlərin bərpası üzrə Bank prosedurlarına əməl etmək məqsədilə hüquqi tədbirlərin predmeti olaraq qalır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə ARMB-də və digər banklarda saxlanılan əsginaslar və sikkə pullar, bloklaşdırılmamış hesab qalıqları (nostro hesablar) və ədalətli dəyərinin dəyişmə riski çox aşağı olan və Bank tərəfindən qısamüddətli öhdəliklərin idarə olunmasında istifadə edilən, ilkin ödəniş müddəti üç aydan az olan yüksək likvidli maliyyə aktivləri daxildir. ARMB-də saxlanılan məcburi ehtiyatlar onların çıxarılması ilə bağlı məhdudiyyətləri nəzərə alaraq pul vəsaitlərinin ekvivalentlərinə aid edilmir.

Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) pul vəsaitləri və onların ekvivalentləri müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir və (ii) onlar MZVƏD olaraq təyin edilmir. Müəyyən ölkələrdə girov qoyma qanunvericiliyi kimi yalnız qanunvericilikdə tələb olunan xüsusiyyətlər, hətta qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətlərin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**ARMB-də saxlanılan məcburi ehtiyatlar**

ARMB-də saxlanılan məcburi ehtiyatlar uçotda amortizasiya edilmiş dəyərlə göstərilir və faiz hesablanmayan məcburi ehtiyatları əks etdirir ki, onlar da Bankın gündəlik əməliyyatlarını maliyyələşdirmək üçün nəzərdə tutulmamışdır. Bu səbəbdən də pul vəsaitlərinin hərəkəti haqqında hesabatda onlara pul vəsaitləri və onların ekvivalentləri kimi baxılmır.

**Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər**

Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər, Bankın, müxbir banklara pul köçürməsi zamanı qeydə alınır. Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər:

(i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanıldıqda və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil etdikdə və (ii) MZVƏD-də təyin edilmədikdə amortizasiya olunmuş dəyərdə uçota alınırlar.

**Müştərilərə verilmiş kreditlər**

Müştərilərə verilmiş kreditlər Bankın müştərilər tərəfindən ödəniləcək krediti almaq və ya yaratmaq üçün avans şəklində nağd pul verdiyi zaman qeydə alınır. Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikasına əsasən Bank müştərilərə verilmiş kreditləri və avansları aşağıdakı qiymətləndirmə kateqoriyalarından birində təsnifləşdirir:

- amortizasiya edilmiş dəyərdə qiymətləndirilən müştərilərə verilmiş kreditlər; onlar ilk olaraq məxsusi birbaşa əməliyyat xərcləri əlavə edilməklə ədalətli dəyərdə, daha sonra effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

Dəyərsizləşmə üzrə ehtiyatlar perspektiv EOKZ modelləri əsasında müəyyən edilir. 30 saylı Qeyd Bankın EOKZ modellərində perspektiv məlumatları necə əhatə etdiyinə dair izahat daxil olmaqla, EOKZ-nin ölçülməsində istifadə olunan giriş məlumatları, ehtimallar və qiymətləndirmə üsulları haqqında məlumat verir.

**Kredit öhdəlikləri**

Kredit öhdəlikləri əvvəlcədən müəyyənləşdirilmiş şərtlər və müddətlər altında kredit vermək üçün öhdəliklərdir.

Bank MZVƏD-də heç bir borc öhdəliyi götürməmişdir.

Kredit öhdəliklərinə görə Bank zərər ehtiyatını tanıyır.

Kredit öhdəliklərindən irəli gələn öhdəliklər ehtiyatlara daxil edilir.

**İnvestisiya qiymətli kağızları**

Maliyyə vəziyyəti haqqında hesabatda “investisiya qiymətli kağızları” bəndinə daxildir:

- amortizasiya edilmiş dəyərdə ölçülən borc investisiya qiymətli kağızları; bura ilkin olaraq məxsusi birbaşa əməliyyat xərcləri əlavə edilməklə ədalətli dəyərdə, daha sonra effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə ölçülənlər daxildir;

**Əmlak və avadanlıqlar**

**Mülkiyyətdə olan aktivlər**

Əmlak və avadanlıqlar hər hansı yığılmış köhnəlmə və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Əmlak və ya avadanlıqlar müxtəlif yararlı xidmət müddətləri olan böyük komponentlərdən ibarət olduğu təqdirdə, onların uçotu ayrı-ayrı əmlak və avadanlıq əşyaları kimi aparılır.

Başa çatdırılmamış tikililər hər hansı tanınmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyərlə uçota alınır. İlkin dəyərə peşəkar xidmət haqları daxildir. Belə başa çatmamış tikililər, onların tikintisi başa çatdıqda və təyinatı üzrə istismara hazır olduqda, müvafiq əmlak və avadanlıq kateqoriyaları üzrə təsnifləşdirilir. Başa çatdırılmamış tikililər üçün köhnəlmə hesablanmır.

Hər hesabat dövrünün sonunda rəhbərlik əmlak və avadanlıqların dəyərsizləşməsinin hər hansı bir göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə bir göstərici mövcuddursa, rəhbərlik, satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və onun istifadə dəyərinin ən yüksək olduğu kimi müəyyən edilən, bərpa edilə bilən məbləği qiymətləndirir. Balans dəyəri bərpa edilə bilən məbləğə endirilir və dəyərsizləşmə zərərləri il üzrə mənfəət və zərər hesabatında tanınır. Aktivin istifadə dəyərini və ya satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyənləşdirmək üçün istifadə edilən ehtimallarda dəyişiklik baş verərsə, əvvəlki illərdə aktiv üzrə tanınmış dəyərsizləşmə zərərlərinə düzəliş edilir.

Silinmələr üzrə mənfəət və zərər gəlirlərin balans dəyəri ilə müqayisə olumaqla müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə tanınır (digər əməliyyat gəlirləri və ya xərcləri daxilində).

**Qeyri-maddi aktivlər**

Müəyyən istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti ərzində (1-10 il) düz xətt metodundan istifadə etməklə mənfəət və ya zərərdə tanınır. Təxmin edilən faydalı istismar müddəti və amortizasiya metodu perspektiv əsaslarla uçota alınan təxminlərdəki hər hansı dəyişikliklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir.

**İnvestisiya mülkiyyəti**

İnvestisiya mülkiyyəti Bank tərəfindən icarə gəlirləri əldə etmək və ya kapital dəyərini artırmaq və ya hər ikisi üçün, saxlanılmış, lakin Bank tərəfindən icarəyə götürülməmiş mülkiyyətdir. İnvestisiya mülkiyyəti əmlak və avadanlıq kimi gələcək istifadəsi nəzərdə tutulan tikilələrdən ibarətdir. İnvestisiya mülkiyyəti, zəruri olduğu təqdirdə, dəyərdən yığılmış köhnəlmə və dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ifadə olunur.

Sonrakı xərclər gələcək iqtisadi gəlirlərin Banka axın edəcəyi ehtimalı olduqda kapitallaşdırılır və bu halda xərclər etibarlı şəkildə ölçülə bilir. Digər texniki və təmir xərcləri yarandığı müddətdə xərclərə aid edilir. Əgər investisiya mülkiyyəti sahibkar tərəfindən tutulursa, bu zaman əmlak və avadanlıqlara yenidən təsnif edilir. İnvestisiya mülkiyyəti üzrə köhnəlmə, onların dəyərini təxmin edilən faydalı istismar müddətlərindən asılı olaraq qalıq dəyərləri üzrə bölünməsi üçün azaldılmış qalıq üsulu ilə hesablanır. İnvestisiya mülkiyyətinin təxmini faydalı ömrü 50 ildir. Hər hesabat dövrünün sonunda rəhbərlik investisiya mülkiyyətinin dəyərsizləşməsinin hər hansı bir göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə bir göstərici mövcuddursa, rəhbərlik, satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və onun istifadə dəyərinin ən yüksək olduğu kimi müəyyən edilən, bərpa edilə bilən məbləği qiymətləndirir. Aktivin satışı üçün ölçülmə tarixinə bazar şərtləri altında bazar iştirakçıları arasında nizamlı əməliyyatların həyata keçirildiyi qiymət üzrə, etibarlı təxminlər irəli sürmək üçün əsas olmadığından, satış xərcləri çıxılmaqla, ədalətli dəyəri ölçmək mümkün deyil. Bu halda müəssisə aktivin dəyərini bərpa edilə bilən məbləğ kimi istifadə edir. Balans dəyəri bərpa edilə bilən məbləğə endirilir və dəyərsizləşmə zərərləri il üzrə mənfəət və zərər hesabatında tanınır. Aktivin istifadə dəyərini müəyyənləşdirmək üçün istifadə edilən ehtimallarda dəyişiklik baş verərsə, əvvəlki illərdə aktiv üzrə tanınmış dəyərsizləşmə zərərlərinə düzəliş edilir.

Silinmələr üzrə mənfəət və zərər gəlirlərin balans dəyəri ilə müqayisə olumaqla müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə tanınır.

***Amortizasiya***

Amortizasiya ayrı-ayrı aktivlərin hesablanmış faydalı istifadə müddətləri üzrə düz xətt prinsipi əsasında mənfəət və ya zərərə aid edilir. Amortizasiya aktiv əldə edildiyi tarixdən yaxud da daxili qaydada inşa edilən aktivlər halında, aktiv tam istifadə üçün hazır olduğu tarixdən etibarən başlanır. Torpaq üzrə amortizasiya hesablanmır. Təxmin edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

| | **İllər üzrə faydalı istifadə müddəti** |
|---|---|
| Binalar | 50 |
| Mebel və qurğular | 5 |
| Kompüterlər və rabitə avadanlıqları | 4-10 |
| Nəqliyyat vasitələri | 4 |
| Digər əsas aktivlər | 5 |
| İcarə obyektinin təkmilləşdirilməsi | İcarə müqaviləsinin müddəti ərzində |
| İstifadə hüququ olan aktivlər | İcarə müqaviləsinin müddəti ərzində |

Əmlak və avadanlıq obyektləri hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıqların satış nəticəsində silinməsi və ya istismardan çıxarılması nəticəsində yaranan hər hansı gəlir və ya zərərlər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan gəlir arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

İcarəyə götürülmüş aktivlər üzrə təkmilləşdirmələr, müvafiq aktivlərin faydalı istismar müddəti boyunca amortizasiya olunur. Təmir və yeniləmə ilə bağlı xərclər, ortaya çıxdıqca hesablanır və kapitallaşmaya uyğun olmadıqda əməliyyat xərclərinə daxil edilir.

**Satış üçün saxlanılan aktivlər**

Əsasən davamlı istifadə hesabına deyil, satış hesabına bərpası gözlənilən uzunmüddətli aktivlər maliyyə vəziyyəti haqqında hesabatın "digər aktivlər" sətrində satış üçün saxlanılan aktivlər kimi təsnifləşdirilir. Satış üçün saxlanılan təsnifatdan dərhal əvvəl aktivlər və ya aktivlər qrupunun komponentləri Bankın uçot siyasətlərinə müvafiq olaraq təkrar ölçülür. Bundan sonra adətən aktivlər və ya aktivlər qrupu, onların balans dəyəri və satış xərcləri çıxılmaqla ədalətli dəyəri arasında daha az olanı ilə qiymətləndirilir.

**Maliyyə öhdəlikləri və kapital**

**Borc və ya kapital kimi təsnifləşdirmə**

Borc və kapital alətləri müqavilə şərtlərinə, habelə maliyyə öhdəliyi və kapital aləti haqqında anlayışa əsasən maliyyə öhdəlikləri və ya kapital kimi təsnifləşdirilir.

**Kapital alətləri**

Kapital aləti bütün öhdəliklər çıxıldıqdan sonra müəssisənin aktivləri üzrə qalan payı ifadə edən hər hansı müqavilədir. Bank tərəfindən buraxılmış kapital alətləri birbaşa emissiya xərcləri çıxılmaqla əldə edilmiş gəlirlər kimi tanınır.

Bankın şəxsi kapital alətlərinin geri alınması birbaşa kapitalda tanınır və çıxılır. Eyni zamanda, Bankın şəxsi kapital alətlərinin alınması, satılması, buraxılması və ya ləğv edilməsi üzrə mənfəət və ya zərərdə heç bir gəlir və ya zərər tanınmır.

**Maliyyə öhdəlikləri**

Bank maliyyə öhdəliyinin tanınmasını şərtləri dəyişdikdə və dəyişmiş öhdəlik üzrə pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndikdə dayandırır. Belə olan halda dəyişmiş şərtlər əsasında yeni maliyyə öhdəliyi ədalətli dəyərdə tanınır. Maliyyə öhdəliyinin qalıq dəyərindəki fərq ləğv edilir və dəyişmiş şərtlərlə yeni maliyyə öhdəliyi mənfəət və ya zərərdə tanınır.

Ödənilmiş kompensasiyaya ötürülmüş qeyri-maliyyə aktivləri (əgər varsa) və yeni dəyişdirilmiş maliyyə öhdəliyi daxil olmaqla öhdəliklər daxildir.

Bank keyfiyyət amilləri, kəmiyyət amilləri və birlikdə keyfiyyət və kəmiyyət amillərini nəzərə alaraq dəyişikliyin əhəmiyyətli olub-olmadığının kəmiyyət və keyfiyyət qiymətləndirməsini aparır. Bank aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olduğu qənaətinə gəlir:

- maliyyə öhdəliyinin valyutasının dəyişməsi;
- girov və ya digər kredit keyfiyyətinin artırılmasında dəyişiklik;
- konvertasiya funksiyasının daxil edilməsi;
- maliyyə öhdəliyində subordinasiyanın dəyişməsi.

Yeni şərtlərə əsasən, alınmış haqlar çıxılmaqla ödənilmiş haqlar daxil və ilkin effektiv faiz dərəcəsinə əsasən diskontlaşdırılmaqla, diskontlaşdırılmış cari dəyər ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin diskontlaşdırılmış cari dəyərindən ən azı 10% fərqləndikdə kəmiyyət qiymətləndirməsinin şərtləri əhəmiyyətli dərəcədə dəyişir.

Maliyyə öhdəliyində dəyişiklik tanınmanın dayandırılmasına səbəb olmadıqda öhdəliyin amortizasiya edilmiş dəyəri dəyişdirilmiş pul axınlarının ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılması və alınan gəlir və ya zərərin mənfəət və ya zərərdə tanınması ilə təkrar hesablanır. Dəyişən dərəcəli maliyyə öhdəlikləri üçün dəyişiklikdən yaranan gəlir və ya zərəri hesablamaq məqsədilə istifadə edilən ilkin effektiv faiz dərəcəsinə dəyişiklik zamanı cari bazar şərtlərini əks etdirməsi üçün düzəlişlər edilir. Bununla bağlı yaranan hər hansı xərclər və ya haqlar öhdəliyin qalıq dəyərinə düzəliş kimi tanınır və alət üzərində effektiv faiz dərəcəsinin təkrar hesablanması yolu ilə dəyişikliyə uğramış maliyyə öhdəliyinin qalan müddəti üzrə amortizasiya edilir.

**Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər**

Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər kontragent banklar tərəfindən Banka nağd pul və ya sair aktivlər verildiyi zaman qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərlə uçota alınır. Bank öz borc öhdəliklərini geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə aid edilir.

**Müştərilərə ödəniləcək vəsaitlər**

Müştərilərə ödəniləcək vəsaitlər fiziki şəxslər, dövlət müəssisələri və ya hüquqi şəxslər qarşısında olan qeyri-derivativ maliyyə öhdəliklərini əks etdirir və amortizasiya edilmiş dəyərdə qeydə alınır.

**Müddətli borc alınmış vəsaitlər**

Borc vəsaitləri ilkin olaraq borc vəsaitləri ilə əlaqəli olan buraxılış xərcləri çıxılmaqla alınmış vəsaitlərin ədalətli dəyərinə bərabər olan dəyərdə tanınır. İlkin tanınmadan sonra faiz yaradan borc vəsaitləri effektiv faiz dərəcəsi metodundan istifadə edilərək amortizasiya edilmiş dəyərdə ölçülür.

Amortizasiya olunmuş maya dəyəri buraxılış üçün nəzərdə tutulan bütün xərcləri və hesablaşma üzrə bütün diskont və mükafatlar nəzərə alınmaqla hesablanır. Gəlir və zərərlər öhdəliklərin tanınmasının dayandırılması və ya dəyərsizləşməsi, habelə amortizasiya prosesi zamanı mənfəət və zərər haqqında hesabatda tanınır.

**Buraxılmış borc qiymətli kağızları**

Buraxılmış borc qiymətli kağızları amortizasiya dəyərində uçota alınır. Bank buraxılmış borc qiymətli kağızlarını satın aldığı halda, onlar maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri və ödənilmiş vəsait arasında fərq borcun vaxtından əvvəl bağlanması ilə bağlı yaranan gəlirlərə daxil edilir.

**Ehtiyatlar**

Bankın keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində müəyyən hüquqi və ya konstruktiv öhdəliyi olduqda və həmin öhdəliyin ödənilməsi üçün iqtisadi faydaların itirilməsinin baş verməsi ehtimal olunduqda, ehtiyat maliyyə vəziyyəti haqqında hesabatda əks olunur. Təsiri əhəmiyyətli olduqda, ehtiyatlar pul vəsaitlərinin vaxt baxımından dəyərinin cari bazar qiymətləndirmələrini əks etdirən vergiqoymadan əvvəlki dərəcə və müvafiq olarsa, həmin öhdəliyə aid olan xüsusi risklər əsasında gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılması yolu ilə müəyyənləşdirilir.

**İcarələr**

Müqavilə bağlanarkən, Bank müqavilənin icarə olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

**Bank icarəçi qismində**

Bank qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Bank icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüququ olan aktivləri tanıyır.

**İstifadə hüququ olan aktivlər**

Bank istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlanğıc tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər ən qısa icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Banka keçirsə və ya dəyəri bir satınalma seçiminin həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Bank, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Bank tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma seçiminin icra qiyməti və icarə müddəti Bankın ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Bank icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**Səhm kapitalı**

**Adi səhmlər**

Adi səhmlər kapital kimi təsnifləşdirilir. Adi səhmlərin və səhm seçimlərinin buraxılmasına bilavasitə aid edilə bilən əlavə xərclər vergiqoyma baxımından heç bir nəticə olmadan kapitaldan tutulma kimi uçota alınır.

**Dividendlər**

Bankın dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

Adi səhmlərə aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətdə əks olunur.

**Vergiqoyma**

Mənfəət vergisi cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir. Mənfəət vergisi mənfəət və zərərdə tanınır, bu vergi digər məcmu gəlirlərlə və ya bilavasitə kapitalda qeydə alınan əməliyyatlarla bağlı olduqda isə, digər məcmu gəlirdə və ya bilavasitə kapitalda tanınır.

**Cari vergi**

Cari vergi xərcləri hesabat tarixində qüvvəyə minmiş və ya mahiyyət etibarilə qüvvəyə minmiş vergi dərəcələri və əvvəlki illərlə bağlı ödənilməli olan vergiyə hər hansı düzəlişdən istifadə etməklə, il üçün vergi tutulan gəlir üzrə ödənilməli gözlənilən vergidir. Vergiyə cəlb edilməzdən əvvəl vergi tutulan mənfəət, digər illərdə vergiyə cəlb edilən və ya çıxılan gəlir və ya xərc maddələri və heç vaxt vergiyə cəlb olunmayan və ya çıxılmayan maddələrə görə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda əks etdirilir.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi maliyyə hesabatlılığı məqsədləri üçün istifadə olunan aktivlərin və öhdəliklərin balans dəyərləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğləri arasında olan müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış vergi nə uçot, nə də vergiyə cəlb edilən mənfəət və ya zərərə təsir göstərməyən əməliyyatda aktiv və ya öhdəliklərin ilkin tanınmasından yaranan müvəqqəti fərqlər üçün tanınır.

Təxirə salınmış vergi aktivi yalnız o zaman uçota alınır ki, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi güzəştlərinin, müvəqqəti fərqlərin əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun. Gələcəkdə vergi tutula bilən mənfəət müvafiq vergi tutulan müvəqqəti fərqlərin bərpası əsasında müəyyən edilir. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir və əlaqəli vergi gəlirləri yaranmadığı təqdirdə müəyyən miqdarda azaldılır; gələcəkdə vergi tutulan mənfəətlər artıqda, bu azaldılmalar geri qaytarılır.

Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində təkrar qiymətləndirilir və o zaman uçota alınır ki, onların əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun.

Təxirə salınmış vergi hesabat tarixinə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunlara uyğun olaraq, müvəqqəti fərqlərə onlar ləğv ediləcəyi zaman tətbiq ediləcək gözlənilən vergi dərəcələri əsasında müəyyən olunur.

Təxirə salınmış verginin ölçülməsi hesabat dövrünün sonunda aktiv və öhdəliklərin balans dəyərini bərpa etmək və ya müəyyənləşdirmək üçün Bankın gözlədiyi qaydada vergi nəticələrini əks etdirir.

Cari və təxirə salınmış vergi öhdəliklərini müəyyən etmək üçün Bank qeyri-müəyyən vergi mövqeyinin təsirini, əlavə vergiləri, peniyaları və ödənilməmiş faizləri nəzərə alır. Bank bir sıra amillərin qiymətləndirilməsinə, o cümlədən vergi qanunvericiliyinin təfsirinə və əvvəlki təcrübəsinə əsaslanaraq inanır ki, vergi öhdəlikləri üçün hesablaşmalar bütün açıq vergi illərinə görə adekvatdır. Bu qiymətləndirmə ehtimal və fərziyyələrə əsaslanaraq həyata keçirilir və uyğun olaraq gələcək hadisələr haqqında ehtimalları əhatə edə bilər. Bankın mövcud vergi öhdəliklərinin adekvatlığı ilə bağlı öz mülahizəsini dəyişdirməsinə səbəb olan yeni məlumatlar yarana bilər; vergi öhdəliklərinə bu cür dəyişikliklər həmin qərarın verildiyi dövrdə vergi xərci məbləğinə təsir edə bilər.

**Mənfəət vergisindən başqa digər vergilər**

Azərbaycan Respublikasında Bankın fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilir.

**Faiz gəliri və xərclərinin tanınması**

**Effektiv faiz dərəcəsi**

Faiz gəlirləri və xərcləri effektiv faiz üsulundan istifadə etməklə mənfəət və zərərdə tanınır. “Effektiv faiz dərəcəsi” maliyyə alətinin gözlənilən istifadə müddəti boyu gələcək pul ödənişləri və alışları dəqiq olaraq:

- maliyyə aktivinin ümumi balans dəyərinədək; və ya
- maliyyə öhdəliyinin amortizasiya dəyərinədək diskontlaşdıran dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş aktivlər istisna olmaqla, digər maliyyə alətləri üçün effektiv faiz dərəcəsini hesablayarkən Bank gələcək pul vəsaitlərini maliyyə alətlərinin bütün müqavilə şərtlərini nəzərə almaqla, lakin kredit zərərlərini nəzərə almadan qiymətləndirir. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri daxil olmaqla gələcək pul vəsaitlərindən istifadə edilməklə hesablanır.

Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan əməliyyat xərcləri və ödənilmiş və ya alınmış haqlar və ya bəndlər daxildir. Əməliyyat xərclərinə maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınmasına və ya verilməsinə bilavasitə tətbiq edilə bilən əlavə xərclər daxildir.

**Amortizasiya edilmiş dəyər və ümumi balans dəyəri**

Maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin “amortizasiya edilmiş dəyəri” maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ilkin tanınmada uçotu əsas ödənişləri çıxmaqla, ilkin məbləğ və ödəniş məbləği arasında hər hansı fərqin effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə, xalis amortizasiyanı daxil etməklə və ya çıxmaqla və maliyyə aktivləri üçün hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırmaqla hesablanan məbləğdir.

Amortizasiya dəyərində hesablanan “maliyyə aktivinin ümumi balans dəyəri” maliyyə aktivinin hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırılmazdan əvvəl amortizasiya edilmiş dəyəridir.

**Faiz gəlirləri və xərclərinin hesablanması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınması zamanı hesablanır. Faiz gəlirləri və ya xərclərinin hesablanması zamanı effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmədikdə) ümumi balans dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir. Effektiv faiz dərəcəsi faizin bazar dərəcələrində yerdəyişmələri əks etdirməsi üçün dəyişən dərəcəli alətlərin pul hərəkətinin dövri olaraq təkrar qiymətləndirilməsinin nəticəsi olaraq yenilənir.

Bununla belə ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşən maliyyə aktivlərinin faiz gəlirləri isə effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktiv artıq kredit üzrə dəyərsizləşmiş olmadıqda faiz gəlirləri yenə ümumi balans dəyərində hesablanır.

**Təqdimat**

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə hesablanan faiz gəlirlərinə aiddir:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri üzrə faizlər.

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda təqdim olunan faiz xərclərinə aiddir:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə öhdəlikləri üzrə faizlər.

**Haqq və komissiya gəlirləri və xərci**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi üzrə effektiv faiz dərəcəsinin tərkib hissəsi olan haqq və komissiya gəlirləri və xərcləri effektiv faiz dərəcəsinə daxil edilir.

Kreditlə əlaqəli haqlar, kredit xidməti haqları və kredit gəlirliliyinin tərkib hissəsi sayılan digər haqlar əlaqədar əməliyyat xərcləri ilə birlikdə effektiv faiz üsulundan istifadə etməklə maliyyə alətinin proqnozlaşdırılan müddəti boyu faiz gəlirlərinə köçürülür və amortizasiya edilir.

Mühasibat xidməti haqları, investisiya idarəçiliyi haqları, satış komissiyası, yerləşdirmə haqları, digər haqq və komissiya gəlirləri əlaqədar xidmətlər göstərildikcə tanınır. Kredit öhdəliyi üzrə kredit vəsaitlərinin istifadəsi gözlənilmədiyi halda kredit öhdəliyi üzrə əlaqədar haqlar öhdəlik dövrü boyu düzxətli şəkildə tanınır.

Bankın maliyyə hesabatında tanınan maliyyə aləti ilə nəticələnən müştəri ilə müqavilə qismən 9 saylı MHBS, qismən də 15 saylı MHBS çərçivəsində ola bilər. Belə olduğu təqdirdə Bank müqavilənin 9 saylı MHBS-yə aid olan hissəsini ayırmaq və ölçmək üçün əvvəlcə 9 saylı MHBS-ni, daha sonra qalan hissəyə 15 saylı MHBS-ni tətbiq edir.

Digər haqq və komissiya xərcləri əsasən qəbul edilən xidmət xərcləri kimi göstərilmiş əməliyyat və xidmət haqlarına aid edilir.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq dövlət pensiya sistemi işəgötürən tərəfindən cari ödənişlərin işçilərə cari ümumi ödənişlərdə faizlə hesablanmasını təmin edir. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilir. Bank Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Bankda hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Xarici valyutanın çevrilməsi**

Bankın funksional valyutası həmin müəssisənin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Bankın funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır ("AZN").

Monetar aktivlər və öhdəliklər ARMB-nin müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Bankın hər bir müəssisəsinin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Bankın hər bir müəssisəsinin funksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə (xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir.

Məzənnə dəyişikliklərinin xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

İl sonunda xarici valyuta qalıqlarının çevrilməsində Bank tərəfindən istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| Avro/AZN | 2.0022 | 1.7724 |

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Bankın maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verilməsini tələb edir. Rəhbərlik mütəmadi olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Aşağıda göstərilən təxminlər və mülahizələr Bankın maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**EOKZ ehtiyatının ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 30 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri üzrə ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenari modelləri.

Bank müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 30 saylı Qeyddə açıqlanır.

**Kredit Riski üzrə Əhəmiyyətli Artım ("KRƏA")**

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Bank hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmaq üçün deyil, kredit riskinin nisbi artımını təyin etmək məqsədilə nəzərdən keçirir. Bank müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcək məlumatları nəzərə alır. Bankın rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən əvvəl təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan proqnozlaşdırılan məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 30 saylı Qeydə nəzər salın.

**Biznes modelinin qiymətləndirilməsi**

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Bankın rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial zərərlərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modeli çərçivəsində dəyərləndirilir. Bankın rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stresli vəziyyətlərdə və ya Bankın nəzarətindən kənar olan ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Yerdə qalan aktivlər kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. Müqavilə üzrə nəzərdə tutulmuş nağd vəsaitlərin toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

**Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi (“YƏMFÖ”)**

Nağd vəsaitlər axının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirilir, amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadıqda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldilən maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZVƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Bankın rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından əvvəl ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də əvvəlcədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) maliyyə aktivi ilkin olaraq premiya və ya diskontla hazırlanmışdır, (ii) öncədən ödəniş məbləği müqavilə üzrə nəzərdə tutulmuşdur və əsas məbləğ, hesablanmış faizlər və məntiqli sayılan məbləğdə olmaqla müqaviləyə əvvəlcədən xitam verməklə bağlı kompensasiya ilə bağlıdırsa və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

Bankın kredit müqavilələrində nəzərdə tutulmuş müddəalar müəyyən makroiqtisadi və ya tənzimləmə ilə bağlı yaranmış hallara cavab olaraq faiz dərəcələrinə dəyişikliyin edilməsinə icazə verir. Bankın rəhbərliyi mülahizələrdən istifadə etməklə bank sektorunda rəqabətin mövcud olması və Bankdan kredit alan müştərilərin potensial olaraq kreditləri yenidən maliyyələşdirmə imkanlarının olması fonunda faiz dərəcələrinin bazar faiz dərəcələrinə nisbətən artırılmasının mümkün olmaması qənaətinə gəlmiş və bu hal üzrə yaranan nağd pul vəsaitlərini YƏMFÖ çərçivəsində dəyərləndirmişdir.

**Maliyyə aktivlərinin dəyişdirilməsi**

Maliyyə aktivləri üzrə müqavilə şərtlərində dəyişikliklər baş verdikdə (məsələn şərtlər yenidən razılaşdırıldıqda), Bankın rəhbərliyi ilk olaraq dəyişikliyin əhəmiyyətliliyinə, ilkin tanınmış maliyyə aktivinə xitam verilməsi və ədalətli dəyərdə yeni maliyyə aktivinin tanınması zərurətinə nəzər yetirir. Bu dəyərləndirmə əsasən müvafiq mühasibat siyasətində təsvir edilmiş keyfiyyət parametrlərinə əsaslanır və kifayət qədər mülahizələrdən istifadə olunmasını tələb edir. Xüsusən də Bankın rəhbərliyi kredit üzrə dəyərsizləşməyə məruz qalmış və şərtləri yenidən razılaşdırılmış maliyyə aktivinin tanınmasının dayandırılması və ikin tanınma zamanı kredit zərərinə məruz qalmış yeni alətin tanınmasına zərurətin olması məsələsində mülahizələrdən istifadə edir. Tanınmaya xitam verilməsi üzrə dəyərləndirmə zamanı müqavilə şərtlərinə edilən dəyişikliklərin kredit aləti üzrə gözlənilən (məhz müqavilə üzrə deyil, gözlənilən) nağd pul vəsaitlərin hərəkətinə edilən təsir üzrə risk və mükafatlar nəzərə alınır. Bankın rəhbərliyi hesab edir ki, belə kreditlər şərtlərinin yenidən razılaşdırılması nəticəsində risk və mükafatlar dəyişməmiş, buna görə də bütün belə kreditlər üzrə kredit alətinin tanınmasına xitam verilməmiş və kredit dəyərsizləşməsi üzrə aid olduğu mərhələdən digərinə köçürülməmişdir.

**Müştərilərə verilmiş restrukturizasiya edilmiş dəyərsizləşmiş kreditlərin ədalətli dəyəri**

Maliyyə hesabatlarının 10 saylı Qeydində açıqlandığı kimi, 31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Bank 12% illik faiz dərəcəsi və 36 ay ödəmə müddəti ilə 5,638 AZN məbləğində diskontlaşdırılmamış ümumi pul vəsaitlərinin hərəkəti əsasında əvvəlcədən silinmiş kreditləri restrukturizasiya etmişdir. Kreditin düzəliş edilmiş şərtləri ilkin şərtlərindən əsaslı dərəcədə fərqli olduğundan Bank tanınmanın dayandırılması yanaşmasını tətbiq etmiş və kredit ədalətli dəyəri 3,184 AZN olmaqla ilkin SƏKD krediti olaraq tanınmışdır. Kreditin müddəti və şərtləri ilkin tanınma zamanı normal bazar şərtlərinə uyğun olmadığından, Bank bənzər maliyyə alətləri üzrə kredit üzrə tənzimlənmiş effektiv bazar faiz dərəcəsindən istifadə etməklə krediti ədalətli dəyərdə tanımışdır. 31 dekabr 2025-ci il tarixinə kreditin balans dəyəri 3,570 AZN olmuşdur (31 dekabr 2024-cü il: 3,184 AZN).

**Müsadirə edilmiş girovların qiymətləndirilməsi**

Davamlı istifadə vasitəsilə deyil, əsasən satış vasitəsilə bərpa olunması gözlənilən müştərilərin kredit defoltu nəticəsində əldə edilmiş müsadirə edilmiş girovlar maliyyə vəziyyəti haqqında hesabatın digər qeyri-maliyyə aktivləri sətrində satış üçün saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilir. Satış üçün saxlanılan aktivlər kateqoriyasında təsnifləşdirilmədən dərhal əvvəl aktivlər və ya silinmə qrupu komponentləri Bankın uçot siyasətinə uyğun olaraq yenidən qiymətləndirilir. Bu səbəbdən, aktivlər və ya silinmə qrupu əsasən onların balans dəyəri və satış xərcləri çıxılmaqla ədalətli dəyər arasında ən aşağı olan ilə ölçülür. Bank rəhbərliyi bu aktivlərin ədalətli dəyəri və ehtimal olunan realizasiya tarixləri ilə bağlı əsaslı mülahizə irəli sürür. Bu mülahizənin nəticəsi olaraq Bank 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə həmin aktivlər üzrə 1,382 AZN məbləğində ədalətli dəyər üzrə zərər tanımışdır (31 dekabr 2024-cü il: 197 AZN).

**Əmlak, avadanlıqlar, qeyri-maddi aktivlər və investisiya mülkiyyətinin faydalı istifadə müddəti**

Bank əmlak, avadanlıqlar, qeyri-maddi aktivlər və investisiya mülkiyyətinin qalan faydalı istismar müddətlərini hər maliyyə ilinin sonunda qiymətləndirir. Gözləmələr əvvəlki təxminlərdən fərqlənirsə, dəyişikliklər "Mühasibat uçotu siyasəti, uçot təxminlərində dəyişikliklər və xətalar" adlı 8 saylı MUBS-a uyğun olaraq uçot qiymətləndirməsində dəyişiklik hesab olunur. Bu təxminlər əmlak və avadanlıqların balans dəyəri və mənfəət və ya zərərdə tanınmış amortizasiya məbləğinə əhəmiyyətli təsir göstərə bilər.

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər**

16 saylı MHBS-nin tətbiqi icarə öhdəlikləri və istifadə hüququ olan aktivlərə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Bank yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

İcarə öhdəliklərini ölçmək üçün istifadə edilən müvafiq diskont dərəcəsini müəyyən etmək üçün təxminlər tələb olunur. Bank icarədə nəzərdə tutulan faiz dərəcəsini dərhal müəyyən edə bilmir və bu səbəbdən icarə öhdəliklərinin ölçülməsi üçün əlavə faiz dərəcəsindən (ƏFD) istifadə edir. ƏFD Bank oxşar şərt və oxşar girovla oxşar iqtisadi mühitdə istifadə hüququ olan aktivə oxşar dəyərli aktivin əldə edilməsi üçün tələb olunan vəsaitlərin borca alınması üçün ödəməli olduğu faiz dərəcəsidir. Beləliklə, ƏFD Cəmiyyətin nəyi “ödəməli olduğunu” əks etdirir, bu isə heç bir müşahidə edilən dərəcələr olmadıqda (məsələn, Bank maliyyə əməliyyatları aparmadıqda) və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda (məsələn, icarələr Bankın funksional valyutasında olmadıqda) qiymətləndirilmənin aparılmasını tələb edir. Bank ƏFD-ni mümkün olduqda müşahidə edilən giriş məlumatlarından (bazardakı faiz dərəcələri kimi) istifadə etməklə qiymətləndirir və müəssisənin xüsusiyyətlərini nəzərə almaqla (məsələn, Bankın kredit reytinqi) müəyyən qiymətləndirmələr aparmalıdır.

**Məhkəmə işləri**

Bank, həllini gözləyən işlər və ya danışıqlar yolu ilə həll, vasitəçilik, arbitraj və ya dövlət tənzimlənməsi kimi digər cari iddialar, həmçinin digər şərti öhdəliklər ilə bağlı ehtiyatların ölçülməsi və tanınmasında və şərti öhdəliklərə məruz qalma məsələlərində əhəmiyyətli mühakimələr yürüdür. Mühakimələrin yürüdülməsi qaldırılmış iddiaların baş tutması və ya öhdəliklərin yaranması ehtimalının qiymətləndirilməsində və başa çatmış hesablaşmanın mümkün hədlərini dəyərləndirmək üçün əhəmiyyətlidir. Qiymətləndirmə prosesində qətiyyətsizliklər ucbatından əsl zərərlər qiymətləndirilmiş zərərlərdən fərqli ola bilər.

Bu qiymətləndirmələr daxili mütəxəssislərin (mövcud olduğu hallarda) və ya hüquq məsləhətçisi kimi kənar məsləhətçilərin dəstəyi ilə formalaşdırılmış yeni məlumatlara əsasən dəyişdirilə bilər. Qiymətləndirmələrə yenidən baxılması gələcək əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

**Cari mənfəət vergisi**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Bundan əlavə, vergi orqanları tərəfindən Bankın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin şərhi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Nəticədə, Banka əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlama aparıla bilər. Müəyyən hallarda yoxlamalar daha uzun müddəti əhatə edə bilər.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLAR VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Bank Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) tərəfindən qəbul edilmiş Bankın fəaliyyəti üçün münasib olan başlanğıc tarixindən 31 dekabr 2025-ci il tarixinədək olan dövr üzrə bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **“Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri” adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni və yenidən işlənmiş standartların və şərhlərin Bankın maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Bank tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Bank qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

30 may 2024-cü il tarixində MUBSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS “Maliyyə Alətləri”** və **7 saylı MHBS “Maliyyə Alətləri: Məlumatların Açıqlanması”**na düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD-də ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MUBSŞ **“MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild”**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: “De-fakto agent”inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı MUBS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

2024-cü ilin dekabr ayında MUBSŞ **“Təbiət Amillərindən Asılı Elektrik Enerjisinə İstinad edən Müqavilələr” dərc etmişdir (9 saylı MHBS və 7 saylı MHBS-yə Düzəlişlər)**. Düzəlişlər bərpa olunan enerji bazarlarında getdikcə daha geniş istifadə olunan, pul vəsaitlərinin hərəkəti külək və ya günəş işığı kimi təbii şəraitdən asılı olaraq dəyişən müəyyən uzunmüddətli elektrik enerjisinin satınalma müqavilələrinin və oxşar müqavilələrin uçotunu əhatə edir.

Düzəlişlərə əsasən təchiz olunan elektrik enerjisinin həcmi (və müvafiq olaraq pul vəsaitlərinin hərəkəti) təbiət amillərindən asılı olaraq dəyişsə belə, təbiət amillərindən asılı elektrik enerjisinə istinad edən müqavilələr yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olan pul vəsaitlərinin hərəkəti (YƏMFÖ) meyarına cavab verə bilər. 9 saylı MHBS üzrə müvafiq olan bütün digər şərtlər yerinə yetirildiyi halda, bu cür müqavilələr amortizasiya olunmuş dəyər və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə (DMGVƏD) ölçülə bilər.

Əlavə olaraq, düzəlişlər 7 saylı MHBS çərçivəsində məqsədyönlü açıqlama tələbləri təqdim edir ki, bu da maliyyə hesabatlarının istifadəçilərinə həmin müqavilələrin müəssisənin maliyyə vəziyyətinə, maliyyə nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsirini, o cümlədən həcm riski və qiymət mexanizmləri barədə məlumatları anlamağa şərait yaradır.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur və erkən tətbiqinə icazə verilir. İlkin tətbiq zamanı müqayisəli məlumatların yenidən təsnifləşdirilməsi tələb olunmur.

9 aprel 2024-cü il tarixində MUBSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **“Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması” adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də “əməliyyat mənfəət və ya zərəri” ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə kömək edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət göstəriciləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin “əməliyyat mənfəəti və ya zərər” hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MUBSŞ tərəfindən 19 saylı **“İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması”** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Mühasibat Uçot Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

2025-ci ilin avqust ayında MUBSŞ standarta dəyişikliklər dərc etmişdir. Bu dəyişikliklər 2021-ci ilin fevral ayından 2024-cü ilin may ayınadək dərc edilmiş yeni və düzəliş edilmiş MHBS Mühasibat Uçotu Standartlarını əks etdirmək məqsədilə 19 saylı MHBS-ni yeniləyir və azaldılmış açıqlama çərçivəsinin cari MHBS Mühasibat Uçotu Standartlarının tələblərinə uyğunluğunu təmin edir.

Düzəlişlər yeni dərc olunmuş standartlar və düzəlişlərdən yaranan dəyişiklikləri əhatə etmək məqsədilə 19 saylı MHBS daxilində açıqlama tələblərini yenidən nəzərdən keçirir və əlavə edir. Eyni zamanda, 19 saylı MHBS-nin məqsədini MHBS Mühasibat Uçotu Standartlarını tətbiq edən və ictimai hesabatlılığı olmayan uyğun törəmə müəssisələr üçün açıqlama yükünün azaldılmasını qoruyub saxlayır.

Düzəlişlər 19 saylı MHBS-nin tətbiq edilməsi üçün uyğunluq meyarlarını dəyişmir və törəmə müəssisələr tərəfindən tətbiq olunan tanınma və ya ölçülmə tələblərinə təsir göstərmir. Bunun əvəzinə, düzəlişlərə əsasən 19 saylı MHBS-ni tətbiq edən müəssisələr MHBS Mühasibat Uçotu Standartlarının işlənib hazırlanmasında müvafiq və qərar qəbuletmə üçün faydalı olan açıqlamalar verməlidirlər.

Yeni standart 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

2025-ci ilin noyabr ayında MUBSŞ **Hiperinflyasiyalı Təqdimat Valyutasına Çevrilməni (21 saylı BAS-a düzəlişlər**) dərc etmişdir. Dəyişiklik əsasən 21 saylı BAS-da mövcud boşluğun aradan qaldırılmasına yönəlmişdir, buraya müəssisənin funksional valyutası hiperinflyasiyalı olmadığı təqdirdə, müəssisənin təqdimat valyutası hiperinflyasiyalı olduğu hallar şamil olunur.

Düzəlişlər müəssisə tərəfindən maliyyə hesabatlarının hiperinflyasiyalı təqdimat valyutasına çevrilməsi, o cümlədən müqayisəli məlumatların təqdim olunması qaydalarını müəyyən edir. Xüsusilə də, düzəlişlərə əsasən müəssisə maliyyə hesabatlarını hiperinflyasiyalı valyutada təqdim etdiyi zaman müəssisənin funksional valyutası hiperinflyasiyalı olmadığı halda belə təqdimat valyutasına “Hiperinflyasiyalı İqtisadiyyatlarda Maliyyə Hesabatlılığı” adlı 29 saylı BAS standartını tətbiq edir.

Düzəlişlər hiperinflyasiyalı valyutada təqdim olunan maliyyə hesabatlarının hiperinflyasiyanın təsirlərini maliyyə hesabatlarının istifadəçiləri üçün müvafiq şəkildə əks etdirməsini təmin etməklə ardıcıllığı və müqayisəliliyi artırır.

Düzəlişlər 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

**“Konsolidə edilmiş Maliyyə Hesabatları” adlı 10 saylı MHBS və “İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi” adlı 28 saylı MUBS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya edilmiş və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir.

BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hazırkı hesabat tarixində bu standartlar Bank fəaliyyət göstərdiyi yurisdiksiya tərəfindən qəbul edilməmişdir.

Əksi göstərilmədiyi təqdirdə, yeni və yenidən işlənmiş standartların və şərhlərin Bankın maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Kassadakı nağd pul vəsaitlər | 16,973 | 17,402 |
| ARMB-dəki nostro hesablar | 4,493 | 3,779 |
| Digər banklardakı nostro hesablar | | |
| - reytinqi "BBB-"dən "BBB+"dək | 2,235 | 2,047 |
| - reytinqi "BB-"dən "BB+"dək | 455 | 56 |
| - reytinqi "B-"dən "B+"dək | 44 | 42 |
| - reytinqsiz | 698 | 698 |
| **Digər banklarda cəmi nostro hesablar** | **3,432** | **2,843** |
| ARMB-də qısamüddətli depozitlər | 47,040 | 25,013 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **71,938** | **49,037** |

Reytinqlər "Fitch" reytinq sisteminə əsaslanır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bütün qalıqlar 1-ci Mərhələdədir və onların EOKZ-si əhəmiyyətsiz olmuşdur. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr mövcud olmamışdır.

31 dekabr 2025-ci il tarixinə ARMB-dən başqa Bankın balansı kapitalın 10%-ni keçmiş heç bir bankı (31 dekabr 2024-cü il: ARMB-dən başqa heç bir bank) olmamışdır.

## 7. ARMB-DƏ SAXLANILAN MƏCBURİ EHTİYATLAR

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə ARMB-də saxlanılan məcburi ehtiyatlar ARMB-də minimal məcburi depozit ehtiyatı olmaqla müvafiq olaraq 6,969 AZN və 6,239 AZN təşkil etmişdir. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə ARMB-də saxlanılan məcburi pul vəsaitlərinin cəmi qalığı 1-ci Mərhələdə əks etdirilmişdir.

Məcburi ehtiyatlar ARMB tərəfindən dərc olunmuş qaydalara müvafiq olaraq hesablanan faizsiz ehtiyatlardır və onların çıxarılması məhdudlaşdırılmışdır. Ehtiyatlar ARMB qaydaları əsasında qiymətləndirilir və cəlb olunan müştəri vəsaitlərinin səviyyəsindən asılıdır.

20 noyabr 2023-cü il tarixində ARMB məcburi ehtiyatların hesablanması üzrə müəyyən yeniliklər etmişdir və yeni qaydalara əsasən kredit təşkilatları ARMB-də faiz gətirməyən nağd pul depozitləri (məcburi ehtiyatlar) saxlamalıdırlar. Məcburi ehtiyat dərəcələrinin müəyyən edilməsi əsasında yeni diferensiasiya meyarları tətbiq edilmişdir. Diferensiasiya meyarları aşağıdakı kimidir:

- Hüquqi şəxslərin yerli valyutada olan depozitlərinin 1,000,000 AZN-dən daha aşağı olub-olmaması (xarici valyutalar üçün 750,000 AZN);
- Əlaqəli tərəflərin depozitlərinin cəmi depozitlərə nisbətinin 20%-dən aşağı olub-olmaması;
- Banka aidiyyatı olan şəxslərin depozitlərinin cəmi depozitlərə nisbətinin 20%-dən aşağı olub-olmaması;

Bankın hüquqi şəxslər tərəfindən yerli və xarici valyutada yerləşdirilmiş depozitlərin 1,000,000 AZN və 750,000 AZN məbləğini keçməməsi, eləcə də əlaqəli tərəflərin depozitlərinin və Banka aidiyyatı olan şəxslərin depozitlərinin seqmentinin cəmi depozitlərə nisbətinin 20%-dən yuxarı olmaması səbəbindən, 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə yerli valyutada olan depozitlər üçün tətbiq olunan məcburi ehtiyatlar norması 5% və xarici valyutada olan depozitlər üçün tətbiq olunan məcburi ehtiyatlar norması isə 6% olmuşdur.

## 8. BANKLARDAN VƏ DİGƏR MALİYYƏ QURUMLARINDAN ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Rezident maliyyə təşkilatlarına verilmiş kreditlər | 8,177 | - |
| Qeyri-rezident maliyyə təşkilatlarında bloklanmış hesablar | 1,449 | 106 |
| Rezident maliyyə təşkilatlarında bloklanmış hesablar | 390 | 319 |
| Rezident maliyyə təşkilatlarında müddətli depozitlər | - | 3,029 |
| **Cəmi banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər** | **10,016** | **3,454** |

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| - reytinqi “BBB-”dən “BBB+”dək | 1,449 | 106 |
| - reytinqsiz | 8,567 | 3,348 |
| **Cəmi banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər** | **10,016** | **3,454** |

Bütün reytinqlər “Fitch” reytinq sisteminə əsaslanır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bütün qalıqlar 1-ci Mərhələdədir və onların EOKZ-si əhəmiyyətsiz olmuşdur. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında heç bir köçürmə mövcud olmamışdır.

31 dekabr 2025-ci il tarixinə banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlərə daxil edilmiş hesablanmış və alınacaq faizlər 57 AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: 29 AZN).

## 9. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **Amortizasiya dəyərində ölçülən hökumət istiqrazları** | | |
| - reytinqi “BBB-”dən “BBB+”dək | - | 10,503 |
| **Amortizasiya dəyərində ölçülən korporativ istiqrazlar** | | |
| - reytinqi “BB-”dən “BB+”dək | - | 3,382 |
| - reytinqsiz | 503 | 2,529 |
| **Cəmi investisiya qiymətli kağızları** | **503** | **16,414** |

Bütün reytinqlər “Fitch” reytinq sisteminə əsaslanır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bütün qalıqlar 1-ci Mərhələdə qeydə alınmışdır. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr olmamışdır.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə müvafiq olaraq 3 AZN və 540 AZN dəyərində investisiya qiymətli kağızlarına daxil edilən məbləğlər borc qiymətli kağızları üzrə hesablanmış və alınacaq faizləri təmsil edir.

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **Əvvəlki dövrdən keçirilmiş EOKZ üzrə ehtiyat** | **-** | **(380)** |
| Xalis yenidən qiymətləndirmə | 89 | 380 |
| Əvvəl silinmiş məbləğlərin bərpası | (89) | - |
| **Növbəti dövrə keçirilmiş EOKZ üzrə ehtiyat** | **-** | **-** |

## 10. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2025-ci il | | 31 dekabr 2024-cü il | |
|---|---|---|---|---|
| | **Məbləğ** | **Cəmi ümumi kreditlərin %-i** | **Məbləğ** | **Cəmi ümumi kreditlərin %-i** |
| **Korporativ müştərilərə verilmiş kreditlər** | | | | |
| İstehsal və kənd təsərrüfatı | 44,614 | 15% | 38,813 | 20% |
| Pərakəndə və xidmətlər | 47,457 | 16% | 27,241 | 14% |
| Tikinti | 21,073 | 7% | 4,401 | 2% |
| **Cəmi korporativ müştərilərə verilmiş kreditlər** | **113,144** | | **70,455** | |
| **Fiziki şəxslərə verilmiş kreditlər** | | | | |
| İpoteka kreditləri | 69,907 | 23% | 71,602 | 38% |
| İstehlak kreditləri | 64,792 | 22% | 22,100 | 12% |
| Sahibkar kreditləri | 52,620 | 17% | 26,486 | 14% |
| **Cəmi fiziki şəxslərə verilmiş kreditlər** | **187,319** | | **120,188** | |
| **Müştərilərə verilmiş ümumi kreditlər** | **300,463** | | **190,643** | |
| Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | (17,851) | | (16,431) | |
| **Müştərilərə verilmiş xalis kreditlər** | **282,612** | | **174,212** | |

31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə müvafiq olaraq 5,625 AZN və 4,967 AZN məbləğləri müştərilərə verilmiş kreditlər üzrə hesablanmış və alınacaq faizləri əks etdirir.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Bank 12% illik faiz dərəcəsi və 36 ay ödəmə müddəti ilə 5,638 AZN məbləğində diskontlaşdırılmamış ümumi pul vəsaitlərinin hərəkəti əsasında əvvəlcədən silinmiş kreditləri restrukturizasiya etmişdir. Kreditin düzəliş edilmiş şərtləri ilkin şərtlərindən əsaslı dərəcədə fərqli olduğundan Bank tanınmanın dayandırılması yanaşmasını tətbiq etmiş və kredit ədalətli dəyəri 3,184 AZN olmaqla ilkin SƏKD krediti olaraq tanınmışdır. 31 dekabr 2025-ci il tarixinə bu kreditin balans dəyəri 3,570 AZN (31 dekabr 2024-cü il: 3,184 AZN) olmuşdur.

### Müsadirə edilmiş girovlar

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə Bank ümumi balans dəyəri 799 AZN (31 dekabr 2024-cü il: 1,583 AZN) olan müştərilərə verilmiş kreditlər üzrə girov götürərək müəyyən daşınmaz əmlak və digər aktivlər əldə etmiş və satış üçün saxlanılan aktivlər kimi tanımışdır. Bankın siyasəti bu növ aktivləri mümkün qədər tez satmaqdan ibarətdir.

### Əhəmiyyətli kredit riskləri

31 dekabr 2025-ci il tarixinə Bankın ümumi kredit qalıqları 1,000 AZN-dən artıq olan on doqquz borcalanı və ya əlaqəli borcalanlar qrupu (31 dekabr 2024-cü il: on səkkiz borcalan) mövcud olmuşdur. Bu qalıqların 31 dekabr 2025-ci il tarixinə ümumi dəyəri 83,468 AZN olmuş və ya müştərilərə verilmiş xalis kreditlərin 28%-ni (31 dekabr 2024-cü il: 51,567 AZN və ya 27%) təşkil etmişdir. Bu kreditlər ilə bağlı 7,198 AZN məbləğində ehtimal olunan kredit zərərləri üzrə ehtiyat tanınmışdır (31 dekabr 2024-cü il: 4,310 AZN).

**Həssaslıq təhlili**

Bu hesablamalardakı dəyişikliklər ehtimal olunan kredit zərərləri üzrə ehtiyata təsir göstərə bilər. Məsələn, proqnozlaşdırılan pul axınının xalis cari dəyəri bir faizədək fərqləndikdə, 31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı vergidən əvvəl 179 AZN daha aşağı/daha yuxarı ola bilər (31 dekabr 2024-cü il: 164 AZN daha aşağı/daha yuxarı).

Aşağıdakı cədvəllərdə ümumi balans dəyərlərinin ilin əvvəlinə və ilin sonuna olan qalıqları üzləşdirilmişdir.

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | SƏKD | Cəmi |
|---|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər* | | | | | |
| **1 yanvar 2025-ci il tarixinə** | **160,410** | **2,735** | **24,314** | **3,184** | **190,643** |
| 1-ci Mərhələyə keçid | 1,251 | (426) | (825) | - | - |
| 2-ci Mərhələyə keçid | (4,912) | 5,200 | (288) | - | - |
| 3-cü Mərhələyə keçid | (2,648) | (460) | 3,108 | - | - |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | 204,083 | - | - | - | 204,083 |
| Ödənilmiş aktivlər | (86,044) | (1,348) | (6,195) | (3,564) | (97,151) |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | 1,325 | 40 | 1,480 | - | 2,845 |
| Təxirə salınmış kredit əldə etmə haqlarında xalis dəyişiklik | (671) | (7) | 22 | - | (656) |
| Xalis yenidən qiymətləndirmə | - | - | - | 3,950 | 3,950 |
| Satış üçün saxlanılan aktivlərə köçürmələr | - | - | (1,291) | - | (1,291) |
| Silinmələr | - | - | (2,299) | - | (2,299) |
| Əvvəl silinmiş məbləğlərin bərpası | - | - | 339 | - | 339 |
| **31 dekabr 2025-ci il tarixinə** | **272,794** | **5,734** | **18,365** | **3,570** | **300,463** |

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | SƏKD | Cəmi |
|---|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər* | | | | | |
| **1 yanvar 2024-cü il tarixinə** | **154,612** | **3,713** | **29,228** | **-** | **187,553** |
| 1-ci Mərhələyə keçid | 533 | (517) | (16) | - | - |
| 2-ci Mərhələyə keçid | (2,228) | 2,266 | (38) | - | - |
| 3-cü Mərhələyə keçid | (10,157) | (1,091) | 11,248 | - | - |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | 120,379 | - | - | - | 120,379 |
| Ödənilmiş aktivlər | (102,813) | (1,610) | (4,114) | - | (108,537) |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | 189 | (27) | 3,983 | - | 4,145 |
| Təxirə salınmış kredit əldə etmə haqlarında xalis dəyişiklik | (105) | 1 | 40 | - | (64) |
| Xalis yenidən qiymətləndirmə | - | - | - | 3,184 | 3,184 |
| Satış üçün saxlanılan aktivlərə köçürmələr | - | - | (1,583) | - | (1,583) |
| Silinmələr | - | - | (16,009) | - | (16,009) |
| Əvvəl silinmiş məbləğlərin bərpası | - | - | 1,575 | - | 1,575 |
| **31 dekabr 2024-cü il tarixinə** | **160,410** | **2,735** | **24,314** | **3,184** | **190,643** |

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | SƏKD | Cəmi |
|---|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər – korporativ kreditlər* | | | | | |
| **1 yanvar 2025-ci il tarixinə** | **51,293** | **1,244** | **14,734** | **3,184** | **70,455** |
| 1-ci Mərhələyə keçid | 298 | (72) | (226) | - | - |
| 2-ci Mərhələyə keçid | (2,182) | 2,182 | - | - | - |
| 3-cü Mərhələyə keçid | (615) | (234) | 849 | - | - |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | 79,344 | - | - | - | 79,344 |
| Ödənilmiş aktivlər | (34,549) | (678) | (2,131) | (3,564) | (40,922) |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | 735 | (7) | 1,342 | - | 2,070 |
| Təxirə salınmış kredit əldə etmə haqlarında xalis dəyişiklik | (281) | (1) | 19 | - | (263) |
| Xalis yenidən qiymətləndirmə | - | - | - | 3,950 | 3,950 |
| Satış üçün saxlanılan aktivlərə köçürmələr | - | - | (89) | - | (89) |
| Silinmələr | - | - | (1,532) | - | (1,532) |
| Əvvəl silinmiş məbləğlərin bərpası | - | - | 131 | - | 131 |
| **31 dekabr 2025-ci il tarixinə** | **94,043** | **2,434** | **13,097** | **3,570** | **113,144** |

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | SƏKD | Cəmi |
|---|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər – korporativ kreditlər* | | | | | |
| **1 yanvar 2024-cü il tarixinə** | **55,802** | **1,777** | **22,524** | **-** | **80,103** |
| 1-ci Mərhələyə keçid | 197 | (197) | - | - | - |
| 2-ci Mərhələyə keçid | (983) | 1,021 | (38) | - | - |
| 3-cü Mərhələyə keçid | (3,256) | (281) | 3,537 | - | - |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | 52,695 | - | - | - | 52,695 |
| Ödənilmiş aktivlər | (53,144) | (1,054) | (2,859) | - | (57,057) |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | 98 | (21) | 2,863 | - | 2,940 |
| Təxirə salınmış kredit əldə etmə haqlarında xalis dəyişiklik | (116) | (1) | 40 | - | (77) |
| Xalis yenidən qiymətləndirmə | - | - | - | 3,184 | 3,184 |
| Satış üçün saxlanılan aktivlərə köçürmələr | - | - | (1,334) | - | (1,334) |
| Silinmələr | - | - | (11,245) | - | (11,245) |
| Əvvəl silinmiş məbləğlərin bərpası | - | - | 1,246 | - | 1,246 |
| **31 dekabr 2024-cü il tarixinə** | **51,293** | **1,244** | **14,734** | **3,184** | **70,455** |

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər – ipoteka kreditləri* | | | | |
| **1 yanvar 2025-ci il tarixinə** | **69,796** | **836** | **970** | **71,602** |
| 1-ci Mərhələyə keçid | 823 | (342) | (481) | - |
| 2-ci Mərhələyə keçid | (548) | 698 | (150) | - |
| 3-cü Mərhələyə keçid | (91) | (33) | 124 | - |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | 6,309 | - | - | 6,309 |
| Ödənilmiş aktivlər | (7,528) | (361) | (41) | (7,930) |
| Hesablanmış faizlərdə xalis dəyişiklik | 76 | (1) | (59) | 16 |
| Təxirə salınmış kredit əldə etmə haqlarında xalis dəyişiklik | 36 | - | - | 36 |
| Satış üçün saxlanılan aktivlərə köçürmələr | - | - | (126) | (126) |
| Silinmələr | - | - | (2) | (2) |
| Əvvəl silinmiş məbləğlərin bərpası | - | - | 2 | 2 |
| **31 dekabr 2025-ci il tarixinə** | **68,873** | **797** | **237** | **69,907** |

| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
|---|---|---|---|---|
| *Müştərilərə verilmiş kreditlər – ipoteka kreditləri* | | | | |
| **1 yanvar 2024-cü il tarixinə** | **61,145** | **702** | **324** | **62,171** |
| 1-ci Mərhələyə keçid | 231 | (231) | - | - |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | - | (125) |
| Digər maliyyə aktivləri | - | 110 |
| **Cəmi maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası/(tutulması)** | **2,395** | **(111)** |

## 24. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | **31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| İşçi heyəti və əlaqədar xərclər | (12,170) | (7,753) |
| Köhnəlmə və amortizasiya xərcləri | (2,335) | (2,197) |
| Peşəkar haqlar | (643) | (281) |
| Rabitə xərcləri | (604) | (548) |
| Çap və ofis ləvazimatları | (502) | (374) |
| Proqram təminatı xərcləri | (498) | (476) |
| Təhlükəsizlik xərcləri | (492) | (457) |
| Azərbaycan Əmanətlərin Sığortalanması Fonduna ödənilmiş vəsaitlər | (409) | (377) |
| Reklam xərcləri | (314) | (214) |
| Mənfəət vergisindən başqa digər vergilər (cərimələr və rüsumlar daxil olmaqla) | (286) | (350) |
| Kommunal xərclər | (196) | (150) |
| Təmir və istismar xərcləri | (173) | (221) |
| Nümayəndəlik xərcləri | (105) | (254) |
| Nəqliyyat vasitələrinin istismar xərcləri | (85) | (93) |
| Aşağı dəyərli və qısamüddətli icarə xərcləri | (56) | (60) |
| Digər | (304) | (215) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(19,172)** | **(14,020)** |

## 25. MƏNFƏƏT VERGİSİ

Bank ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını özünün fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS Mühasibat Uçotu Standartlarından fərqli ola bilər.

Bank bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olduğundan daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar/müddətlər, eləcə də müəyyən aktivlər üzrə vergi-uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Aşağıdakı üzləşdirmələr üzrə istifadə olunan vergi dərəcəsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə cəlb olunan mənfəət üzrə ödəniləcək 20%-lik mənfəət vergisi dərəcəsidir.

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Cari mənfəət vergisi xərcləri | (1,252) | (1,374) |
| Təxirə salınmış mənfəət vergisi gəliri/(xərci) | 637 | (578) |
| **Cəmi mənfəət vergisi xərcləri** | **(615)** | **(1,952)** |

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə effektiv vergi dərəcəsi uzlaşması aşağıdakı kimidir:

| | **31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **2,809** | **6,060** |
| Qanunla müəyyən olunmuş vergi dərəcəsi (20%) | (562) | (1,212) |
| Vergidən çıxılmayan xərclər | (53) | (90) |
| Əvvəlki dövrün mənfəət vergisi qiymətləndirilməsinin nəzərdən keçirilməsi | - | (650) |
| **Cəmi mənfəət vergisi xərci** | **(615)** | **(1,952)** |

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində müvəqqəti fərqlərdəki hərəkətlər aşağıdakı kimi təqdim olunur:

| | **1 yanvar 2025-ci il** | **Mənfəət və ya zərər hesabatında əks olunan** | **31 dekabr 2025-ci il** |
|---|---|---|---|
| Digər aktivlər | (736) | 255 | (481) |
| İnvestisiya mülkiyyəti | (200) | (81) | (281) |
| Qeyri-maddi aktivlər | (45) | (150) | (195) |
| Müştərilərə verilmiş kreditlər | (786) | 615 | (171) |
| Əmlak və avadanlıqlar | (201) | 73 | (128) |
| Digər maliyyə öhdəlikləri | 146 | (75) | 71 |
| Digər maliyyə aktivləri | 67 | - | 67 |
| **Xalis təxirə salınmış mənfəət vergisi öhdəlikləri** | **(1,755)** | **637** | **(1,118)** |

| | 1 yanvar 2024-cü il | Mənfəət və ya zərər hesabatında əks olunan | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | (388) | (398) | (786) |
| Digər aktivlər | (524) | (212) | (736) |
| Əmlak və avadanlıqlar | (250) | 49 | (201) |
| İnvestisiya mülkiyyəti | - | (200) | (200) |
| Qeyri-maddi aktivlər | - | (45) | (45) |
| Digər maliyyə öhdəlikləri | (175) | 321 | 146 |
| Digər maliyyə aktivləri | 89 | (22) | 67 |
| Digər öhdəliklər | 29 | (29) | - |
| İnvestisiya qiymətli kağızları | 67 | (67) | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | (25) | 25 | - |
| **Xalis təxirə salınmış mənfəət vergisi öhdəlikləri** | **(1,177)** | **(578)** | **(1,755)** |

## 26. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

“Əlaqəli tərəflərlə bağlı açıqlamalar” adlı 24 saylı MUBS standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Bankın birbaşa, dolayı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr,
(b) eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Bankın fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Bankın fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;
(c) Assosiasiya edilmiş müəssisələr – Bank tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;
(ç) Bankın tərəf kimi çıxış etdiyi birgə müəssisələr;
(d) Bankın və ya ana şirkətin idarə heyətinin üzvləri;
(e) (a) və ya (ç) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;
(ə) (ç) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya
(f) Əmək fəaliyyəti başa çatdıqdan sonra Bankın keçmiş işçiləri və ya Bankın əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

**Nəzarət əlaqələri**

Banka son nəzarət edən tərəf rezident fiziki şəxs Hikmət İsmayılovdur.

**Müşahidə Şurası və İdarə Heyətinin üzvləri ilə əməliyyatlar**

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə işçi heyəti ilə bağlı xərclərə aid edilmiş cəmi ödəniş aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əməkdaşların qısamüddətli müavinətləri | 1,319 | 1,004 |
| **Cəmi əməkdaşların qısamüddətli müavinətləri** | **1,319** | **1,004** |

Bu məbləğlər özündə Müşahidə Şurası və İdarə Heyəti üzvləri ilə əlaqədar nağd müavinətləri ehtiva edir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərində başa çatmış illər üzrə Müşahidə Şurası və İdarə Heyəti üzvləri ilə əməliyyatlarla bağlı ödənilməmiş qalıqlar və orta effektiv faiz dərəcəsi aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il | Orta effektiv faiz dərəcəsi, % | 31 dekabr 2024-cü il | Orta effektiv faiz dərəcəsi, % |
|---|---|---|---|---|
| **Maliyyə vəziyyəti haqqında hesabat** | | | | |
| Müştərilərə verilmiş kreditlər | | | | |
| *Ümumi balans dəyəri* | 96 | 11.5% | 657 | 9.05% |
| *Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat* | - | | - | |
| Müştərilərə ödəniləcək vəsaitlər | | | | |
| *Cari hesablar və müddətli depozitlər* | 38 | - | 988 | 10.94% |
| **Maliyyə vəziyyəti haqqında hesabatda tanınmayan bəndlər** | | | | |
| İstifadə olunmamış kredit xətləri | 20 | | 20 | |

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə Müşahidə Şurası və İdarə Heyəti üzvləri ilə əməliyyatlar üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilən məbləğlər aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat** | | |
| Faiz gəliri | 7 | 72 |
| Haqq və komissiya gəlirləri | 3 | 15 |
| Ümumi və inzibati xərclər | (1,553) | (1,004) |

**Digər əlaqəli tərəflərlə əməliyyatlar**

Digər əlaqəli tərəflərlə 31 dekabr 2025-ci il tarixinə ödənilməmiş qalıqlar və əlaqədar orta effektiv faiz dərəcələri və 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə əlaqəli tərəflərlə əməliyyatlar üzrə mənfəət və ya zərər məbləğləri aşağıdakı kimidir:

| | Son nəzarət edən tərəf | | Ortaq nəzarətə malik və ya son nəzarət edən tərəfin əhəmiyyətli təsiri olan müəssisələr | | Digər əlaqəli tərəflər | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | Əlaqəli tərəflərlə əməliyyatlar | Orta effektiv faiz dərəcəsi, % | Əlaqəli tərəflərlə əməliyyatlar | Orta effektiv faiz dərəcəsi, % | Əlaqəli tərəflərlə əməliyyatlar | Orta effektiv faiz dərəcəsi, % | |
| **Maliyyə vəziyyəti haqqında hesabat** | | | | | | | |
| **AKTİVLƏR** | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | | | | | | | |
| *Ümumi balans dəyəri* | - | | 1,793 | 17% | 685 | 11.8% | 2,478 |
| *Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat* | - | | (38) | | (1) | | (39) |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 18,843 | 4% | 1,835 | - | 277 | 12% | 20,955 |
| **Maliyyə vəziyyəti haqqında hesabatda tanınmayan bəndlər** | | | | | | | |
| Zəmanətlər | - | | 14 | | - | | 14 |
| İstifadə olunmamış kredit xətləri | - | | - | | 39 | | 39 |
| **Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat** | | | | | | | |
| Faiz gəliri | 25 | | 186 | | 34 | | 220 |
| Faiz xərci | 281 | | 1 | | 3 | | 285 |
| Haqq və komissiya gəlirləri | - | | 61 | | 4 | | 86 |
| Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası | - | | 6 | | | | 22 |

Digər əlaqəli tərəflərlə 31 dekabr 2024-cü il tarixinə ödənilməmiş qalıqlar və əlaqədar orta effektiv faiz dərəcələri və 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə əlaqəli tərəflərlə əməliyyatlar üzrə mənfəət və ya zərər məbləğləri aşağıdakı kimidir:

| | **Son nəzarət edən tərəf** | | **Ortaq nəzarətə malik və ya son nəzarət edən tərəfin əhəmiyyətli təsiri olan müəssisələr** | | **Digər əlaqəli tərəflər** | | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Orta effektiv faiz dərəcəsi, %** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Orta effektiv faiz dərəcəsi, %** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Orta effektiv faiz dərəcəsi, %** | |
| **Maliyyə vəziyyəti haqqında hesabat** | | | | | | | |
| **AKTİVLƏR** | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | | | | | | | |
| *Ümumi balans dəyəri* | - | - | 73 | 15% | 368 | 9.64% | 441 |
| *Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat* | - | | (44) | | (17) | | (61) |
| **ÖHDƏLİKLƏR** | | | | | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 11,295 | - | 1,248 | - | 72 | 15% | 12,615 |
| **Maliyyə vəziyyəti haqqında hesabatda tanınmayan bəndlər** | | | | | | | |
| Zəmanətlər | - | | 54 | | - | | 54 |
| İstifadə olunmamış kredit xətləri | - | | - | | 19 | | 19 |
| **Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat** | | | | | | | |
| Faiz gəliri | 24 | | 101 | | 42 | | 167 |
| Faiz xərci | - | | 113 | | - | | 113 |
| Haqq və komissiya gəlirləri | - | | 48 | | 5 | | 53 |
| Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası | 10 | | 69 | | (13) | | 66 |

Digər əlaqəli tərəflərə əsas idarəetmə heyətinin ailə üzvləri, səhmdarların nəzarəti altında olan təşkilatlar daxildir. Əlaqədar tərəflərlə əməliyyatlar nəticəsində yaranan qalıqların əksəriyyəti bir il ərzində ödənilir. Əlaqədar tərəflərlə əməliyyatlar təmin edilmir.

## 27. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Kreditlə bağlı öhdəliklər

Bankın kreditləri uzatmaq üçün kreditlə bağlı ödənilməmiş öhdəlikləri vardır. Bu öhdəliklər təsdiqlənmiş kreditlər, kredit kartları üzrə limitlər və overdraftlar şəklindədir.

Bank müştərilərin üçüncü tərəf qarşısında öhdəliklərinin yerinə yetiriləcəyinə təminat vermək üçün tender, avans zəmanəti və məktublar verir.

Bank müştərilərə kreditlərin verilməsi ilə bağlı kredit öhdəlikləri, maliyyə zəmanətləri verərkən eyni kredit riskinin idarə edilməsi üzrə siyasət və prosedurları tətbiq edir.

Aşağıdakı cədvəldə kreditlə bağlı öhdəliklərin müqavilə üzrə məbləğləri kateqoriyalar üzrə təqdim olunur. Cədvəldə kreditlə bağlı öhdəliklər üzrə əks olunan məbləğlər, məbləğlərin tam ödənildiyini nəzərdə tutur. Cədvəldə zəmanətlər üzrə göstərilmiş məbləğlər kontragentlər bağladıqları müqavilələrdə nəzərdə tutulmuş öhdəliklərini tam həcmdə yerinə yetirmədikləri halda hesabat tarixinə tanınacaq maksimal qalıq zərərlərini əks etdirir.

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| **Müqavilə üzrə məbləğ** | | |
| Təminatlar | 10,626 | 19,188 |
| İstifadə edilməmiş kredit xətləri | 9,005 | 9,910 |
| **Cəmi müqavilə üzrə kredit öhdəlikləri** | **19,631** | **29,098** |
| Ehtiyatlar | (80) | (80) |

Cədvəldə göstərilmiş cəmi kredit öhdəlikləri mütləq gələcək nağd pul vəsaitlərinə tələbatı əks etdirmir, çünki bu kreditlə bağlı öhdəliklərin maliyyələşdirilməsi təmin edilmədən müddəti başa çata və ya onlara xitam verilə bilər. Kredit və kredit xətlərininə dair öhdəliklərin əksəriyyəti Bank tərəfindən şərtsiz kreditlə bağlı öhdəlikləri təşkil etmir.

**Sığorta**

Azərbaycan Respublikasında sığorta sahəsi inkişaf mərhələsindədir və dünyanın digər ölkələrində qəbul edilmiş bir çox sığorta formaları Azərbaycanda hələ mövcud deyil. Bankın əmlak və avadanlıqları, biznes fəaliyyətinin dayanması və ya Banka məxsus olan ərazilərdə və ya onun əməliyyatları ilə əlaqəli baş vermiş hadisələr nəticəsində əmlak və ya ətraf mühitə zərərin vurulması ilə əlaqədar olaraq yaranan üçüncü tərəf məsuliyyətinə dair tam sığorta təminatı yoxdur. Bank tam sığorta təminatı alanadək, müəyyən aktivlərin itirilməsi və ya məhv edilməsi riski mövcuddur və bu riskin əməliyyatlara və maliyyə vəziyyətinə əhəmiyyətli dərəcədə mənfi təsiri ola bilər.

**Məhkəmə iddiaları**

Bank fəaliyyəti ilə əlaqədar olaraq məhkəmə iddialarına və şikayətlərə məruz qalır. Rəhbərlik bu kimi iddia və şikayətlər nəticəsində yaranan maddi məsuliyyətin Bankın maliyyə vəziyyətinə və ya gələcək əməliyyatların nəticələrinə ciddi mənfi təsir göstərməyəcəyini hesab edir.

**Vergi öhdəlikləri**

Azərbaycan Respublikasının vergiqoyma sistemi təkmilləşdirilməkdə davam edir və bir çox hallarda ziddiyyətli və müxtəlif vergi orqanları tərəfindən fərqli qaydada təfsir edilən qanunvericilikdə tez-tez dəyişikliklərlə, rəsmi göstərişlərlə və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər sərt cərimələr və faizlər tətbiq edən orqanlar tərəfindən yoxlanılır və araşdırılır. Bir vergi ili ümumən üç növbəti təqvim ili müddətində vergi orqanları tərəfindən nəzarət üçün açıq qalır. Lakin müəyyən hallarda bir vergi ili daha uzun müddətə açıq qala bilər. Azərbaycan Respublikası daxilində baş verən son hadisələr vergi orqanlarının vergi qanunvericiliyinin şərhində və tətbiq edilməsində daha iddialı bir mövqe tutduğunu göstərir.

Bu hallar Azərbaycan Respublikasında digər ölkələrlə müqayisədə daha ciddi vergi risklərinin yaranmasına səbəb ola bilər. Rəhbərlik hesab edir ki, o, tətbiq olunan Azərbaycan vergi qanunvericiliyinin, rəsmi açıqlamaların və məhkəmə qərarlarının şərhinə əsasən vergi öhdəliklərini adekvat şəkildə təmin etmişdir. Lakin, müvafiq səlahiyyətli orqanların şərhləri fərqli ola bilər və vergi orqanları öz şərhlərinin tətbiq edilməsinə nail olduqları halda, bunun maliyyə vəziyyətinə təsiri əhəmiyyətli ola bilər.

## 28. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

### Uçot təsnifatları və ədalətli dəyərlər

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin təsnifat kateqoriyası üzrə balans dəyərləri haqqında məlumat təqdim olunur:

| | Amortizasiya dəyəri | Cəmi balans dəyəri |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 71,938 | 71,938 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 6,969 | 6,969 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 10,016 | 10,016 |
| İnvestisiya qiymətli kağızları | 503 | 503 |
| Müştərilərə verilmiş kreditlər | 282,612 | 282,612 |
| Digər maliyyə aktivləri | 8,451 | 8,451 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **380,489** | **380,489** |
| **ÖHDƏLİKLƏR** | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 31,416 | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 224,881 | 224,881 |
| Müddətli borc vəsaitləri | 71,979 | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | 5,116 | 5,116 |
| Digər maliyyə öhdəlikləri | 4,687 | 4,687 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **338,079** | **338,079** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin təsnifat kateqoriyası üzrə balans dəyərləri haqqında məlumat təqdim olunur:

| | Amortizasiya dəyəri | Cəmi balans dəyəri |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 49,037 | 49,037 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 6,239 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 3,454 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 16,414 | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 174,212 | 174,212 |
| Digər maliyyə aktivləri | 6,955 | 6,955 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **256,311** | **256,311** |
| **ÖHDƏLİKLƏR** | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 419 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 130,443 | 130,443 |
| Müddətli borc vəsaitləri | 76,462 | 76,462 |
| Digər maliyyə öhdəlikləri | 4,631 | 4,631 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **211,955** | **211,955** |

Ədalətli dəyər üzrə ehtimallar, ölçülmə tarixində bazar iştirakçıları arasındakı nizamlı şəkildə, əməliyyatda bir aktivin satılması üçün alınacaq və ya öhdəliyin köçürülməsi üçün ödəniləcək qiymətə yaxınlaşmaq məqsədi daşıyır. Bununla belə, qeyri-müəyyənliklər və subyektiv mühakimənin istifadəsi nəzərə alınmaqla, ədalətli dəyər, aktivlərin dərhal satılması və ya öhdəliklərin köçürülməsi zamanı realizə edilə bilən kimi qəbul edilməməlidir.

Fəal bazarda ticarət olunan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri kotirovka olunan bazar qiymətlərinə və ya diler qiymət təkliflərinə əsaslanır. Bütün digər maliyyə alətləri üçün Bank digər qiymətləndirmə üsullarından istifadə etməklə ədalətli dəyərləri müəyyən edir.

Qiymətləndirmə üsullarının məqsədi qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivi satmaq üçün əldə olunacaq və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiyməti əks etdirən ədalətli dəyərin müəyyənləşdirilməsidir.

Qiymətləndirmə üsullarına xalis cari dəyər və diskontlaşdırılmış pul vəsaitlərinin hərəkət modelləri, bazarda müşahidə oluna bilən qiymətlərin mövcud olan maliyyə alətləri ilə müqayisəsi daxildir. Qiymətləndirmə metodlarında istifadə edilən ehtimallara və göstəricilərə riskləri olmayan və bençmark faiz dərəcələri, kredit spredi və diskont dərəcələrin qiymətləndirilməsində istifadə edilən sair premiyalar, istiqraz və kapital qiymətləri, xarici valyuta məzənnələri, kapital və kapital indeksi qiymətləri, ehtimal olunan açıq mövqelər və nisbətlər daxildir.

Faiz dərəcələri və valyuta svopları kimi adi və sadə maliyyə alətlərinin ədalətli dəyərini təyin etmək üçün Bank müşahidə olunan bazar məlumatları və rəhbərliyin mülahizəsini və qiymətləndirməsini tələb etməyən və ya az tələb edən geniş surətdə tanınmış qiymətləndirmə modellərindən istifadə edir. Qiymətli kağızlar bazarlarında siyahıda olan borc qiymətli kağızları və səhm qiymətli kağızları, birjalarda alınıb satılan törəmə alətlər və faiz svopları kimi birjadankənar alınıb satılan sadə törəmə alətlər üçün müşahidə olunan qiymətlər və modellər mövcuddur.

Daha mürəkkəb alətlər üçün Bank xüsusi qiymətləndirmə modellərindən istifadə edir. Bu modellərə bəzi və ya bütün mühüm əlavələr bazarda müşahidə olunmaya bilər və bazar qiymətləri və dərəcələrindən törəyə bilər və ya mülahizələr əsasında qiymətləndirilə bilər. Mühüm müşahidə edilə bilməyən əlavələrin aid olduğu alət nümunələrinə fəal bazarın mövcud olmadığı müəyyən kreditlər və qiymətli kağızlar, müəyyən birjadankənar bazarın törəmə alətləri və sekyuritizasiyalarda iştirak faizləri daxildir.

**Maliyyə alətlərinin qiymətləndirilməsi**

Bank, müəyyən maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirmək üçün müşahidə edilə bilən bazar tarixinə əsaslanmayan giriş məlumatlarını özündə əks etdirən qiymətləndirmə üsullarından istifadə edir.

Bazar qiyməti mövcud olduqda, Bank maliyyə alətləri üçün ədalətli dəyəri cari bazar qiyməti ilə müəyyən edir. Aktiv və ya öhdəlik üçün əməliyyatlar qiymətlə bağlı məlumatları davamlı olaraq təmin etmək üçün kifayət qədər müntəzəm və yetərli həcmdə aparıldıqda bazar fəal hesab edilir.

Aktiv bazarda kotirovka edilmiş qiymət olmadıqda, Bank müvafiq müşahidə edilə bilən məlumatların istifadəsini maksimuma çatdıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarından istifadə edir. Seçilmiş qiymətləndirmə üsulu bazar iştirakçılarının bu şəraitdə nəzərə alacaqları bütün amilləri özündə birləşdirir.

Maliyyə alətinin ilkin tanınma zamanı ədalətli dəyərinin ən yaxşı sübutu əməliyyat qiyməti, yəni verilən və ya qəbul edilən məbləğin ədalətli dəyəridir. Əgər Bank ilkin tanınma zamanı ədalətli dəyərin əməliyyat qiymətindən fərqləndiyini müəyyən edirsə və ədalətli dəyər fəal bazarda oxşar aktiv və öhdəlik üçün kotirovka olunan qiymətlə sübut oluna bilmədikdə, eləcə də müşahidə edilə bilən bazarlardan olan məlumatlar vasitəsilə qiymətləndirmə metoduna əsaslanmadıqda, maliyyə aləti ilkin tanıma zamanı ədalətli dəyərlə əməliyyat qiyməti arasındakı fərqin aradan qaldırılmasına uyğunlaşdırılmış ilkin ədalətli dəyərində qiymətləndirilir. Nəticədə, fərq, qiymətləndirmənin müşahidə edilə bilən bazar məlumatı ilə əsaslandırılmasından, yaxud əməliyyatın bağlanma tarixindən gec olmayaraq, alətin istifadə müddəti ərzində uyğun əsasla mənfəət və zərərdə tanınır.

**Ədalətli dəyər iyerarxiyası**

Bank ədalətli dəyərləri ölçərkən ilkin göstəricilərin əhəmiyyətliliyini əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə edir:

- **1-ci səviyyə:** Fəal bazarda eyni bir alət üçün rəsmi bazar qiymətləri (nizamlanmamış).
- **2-ci səviyyə:** birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi digər qiymətləndirmə üsulları.
- **3-cü səviyyə:** müşahidə edilə bilməyən ilkin göstəricilər. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə edilə bilməyən tənzimləmələr və ya mülahizələr tələb olunur.

Aşağıdakı cədvəl ədalətli dəyərdə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini hər bir ədalətli dəyər ölçülməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyəsi əsasında təhlil edir:

| | **Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi** | | | | |
|---|---|---|---|---|---|
| | **Fəal bazarda təyin olunmuş qimətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **Cəmi balans dəyəri** | **Cəmi ədalətli dəyər** |
| **31 dekabr 2025-ci il** | | | | | |
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 71,938 | - | - | 71,938 | 71,938 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | - | 6,969 | - | 6,969 | 6,969 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | - | 10,016 | - | 10,016 | 10,016 |
| İnvestisiya qiymətli kağızları | - | 503 | - | 503 | 511 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 282,612 | 282,612 | 282,612 |
| Digər maliyyə aktivləri | - | 8,451 | - | 8,451 | 8,451 |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | - | 31,416 | - | 31,416 | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | - | 224,881 | - | 224,881 | 224,881 |
| Müddətli borc vəsaitləri | - | 71,979 | - | 71,979 | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | - | 5,116 | - | 5,116 | 5,047 |
| Digər maliyyə öhdəlikləri | - | 4,687 | - | 4,687 | 4,687 |

| | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | | |
|---|---|---|---|---|---|
| | **Fəal bazarda təyin olunmuş qimətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **Cəmi balans dəyəri** | **Cəmi ədalətli dəyər** |
| **31 dekabr 2024-cü il** | | | | | |
| **AKTİVLƏR** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 49,037 | - | - | 49,037 | 49,037 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | - | 6,239 | - | 6,239 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | - | 3,454 | - | 3,454 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | - | 16,414 | - | 16,414 | 16,632 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 174,212 | 174,212 | 174,212 |
| Digər maliyyə aktivləri | - | 6,955 | - | 6,955 | 6,955 |
| **ÖHDƏLİKLƏR** | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | - | 419 | - | 419 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | - | 130,443 | - | 130,443 | 130,443 |
| Müddətli borc vəsaitləri | - | 76,462 | - | 76,462 | 76,462 |
| Digər maliyyə öhdəlikləri | - | 4,631 | - | 4,631 | 4,631 |

## 29. KAPİTAL RİSKİNİN İDARƏ EDİLMƏSİ

ARMB Bankın kapitalının normativ tələblərini müəyyən edir və onların yerinə yetirilməsinə nəzarət edir.

Bank, kapital kimi hüquqi normativlər ilə kredit təşkilatları üçün kapital kimi müəyyən edilmiş vəsaitləri qəbul edir. ARMB-nin qüvvədə olan kapital normativlərinə uyğun olaraq, banklar kapitalın risk çəkili aktivlərə (kapitalın adekvatlığı əmsalı) nisbətini təyin edilmiş minimal səviyyədə saxlamalıdır. 31 dekabr 2025-ci il tarixinə bu minimal səviyyə 10% təşkil etmişdir (31 dekabr 2024-cü il: 10%). Bank 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə kapitalın adekvatlığı əmsalı tələbinə uyğun olmuşdur.

Bundan əlavə, ARMB 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə Banklardan risk üzrə ölçülmüş aktivlərin 5%-i həcmində minimum tənzimləyici 1-ci dərəcəli kapital adekvatlığı əmsalını saxlamağı tələb edir. Bank 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bu tələbə riayət etmişdir.

Bank kapital adekvatlığını öz əməliyyatlarının xarakterinə və həcminə uyğun səviyyədə saxlayır.

Bank müəyyən edilmiş formaya uyğun olaraq icbari əmsallar barədə ARMB-yə məlumat verir. Risk departamenti gündəlik olaraq kapital adekvatlığı əmsallarına uyğunluğa nəzarət edir. Kapital adekvatlığı əmsalları ARMB-nin və Bankın daxili siyasətinin müəyyən etdiyi hədlərə yaxın olarsa, bu barədə Müşahidə Şurasına məlumat verilir.

Mərkəzi Bank tərəfindən müəyyən edilmiş tələblərə əsaslanan cəmi normativ kapital riski ilə ölçülmüş aktivlər və kapital adekvatlığı aşağıdakılardır:

| | **31 dekabr 2025-ci il (audit olunmamış)** | **31 dekabr 2024-cü il (audit olunmamış)** |
|---|---|---|
| 1-ci dərəcəli normativ kapital | 67,955 | 68,478 |
| Cəmi normativ kapital | 75,017 | 75,026 |
| Risk dərəcəsi üzrə ölçülmüş aktivlər, xalis | 310,339 | 210,329 |
| 1-ci dərəcəli kapital adekvatlığı əmsalı (%) | 21.90% | 32.56% |
| Cəmi kapital adekvatlığı əmsalı (%) | 24.17% | 35.67% |

## 30. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ, KORPORATİV İDARƏÇİLİK VƏ DAXİLİ NƏZARƏT

Risklərin idarə edilməsi bank işinin əsasını təşkil edir və Bank əməliyyatlarının əsas elementidir. Bankın üzləşdiyi əsas risklər bazar riski, kredit riski və likvidlik riski ilə bağlıdır.

**Korporativ idarəçilik sistemi**

Bank Azərbaycan Respublikasının qanunları əsasında açıq səhmdar cəmiyyəti kimi təsis olunmuşdur. Bankın ali idarəedici orqanı illik və ya fövqəladə iclaslara çağırılan Səhmdarların ümumi yığıncağıdır. Səhmdarların ümumi yığıncağında Bankın əməliyyatları barədə strateji qərarlar verilir.

Səhmdarların ümumi yığıncağında Müşahidə Şurası seçilir. Müşahidə Şurası Bankın əməliyyatlarına ümumi rəhbərlik etmək səlahiyyətlərinə malikdir.

*Korporativ idarəçilik sistemi*

Azərbaycan qanunvericiliyi və Bankın nizamnaməsi müstəsna olaraq, Səhmdarların ümumi yığıncağı və Müşahidə Şurası tərəfindən təsdiq olunan qərarlar siyahısını müəyyən edir.

31 dekabr 2025-ci il tarixinə Müşahidə Şurasına aşağıdakı şəxslər daxil olmuşdur:

Vüsal Şahverdiyev – Müşahidə Şurasının sədri;
Şədiyyə Amanova – Müşahidə Şurasının üzvü;
Elnur Qurbanov – Müşahidə Şurasının müstəqil üzvü.

Bankın ümumi fəaliyyətləri Bankın kollektiv icraedici orqanı tərəfindən idarə olunur. Səhmdarların ümumi yığıncağında İdarə Heyəti seçilir. Bankın icraedici orqanı Səhmdarların ümumi yığıncağının və Bankın Müşahidə Şurasının verdiyi qərarların icrasına görə məsuliyyət daşıyır. Bankın icraedici orqanı Bankın Müşahidə Şurasına və Səhmdarların ümumi yığıncağına hesabat verir.

31 dekabr 2025-ci il tarixinə İdarə Heyətinə aşağıdakı şəxslər daxil olmuşdur:

Amid Qənbərov – İdarə Heyətinin sədri;
Lalə Quliyeva – İdarə Heyətinin üzvü;
Rüfət Manafov – İdarə Heyətinin üzvü.

**Daxili nəzarət siyasəti və prosedurları**

Müşahidə Şurası və İdarə Heyəti Bankda əməliyyatların həcminə və xarakterinə uyğun olan daxili nəzarət sistemlərinin işlənib hazırlanması, icrası və saxlanmasına görə məsuliyyət daşıyır.

Daxili nəzarət sistemlərinin məqsədi aşağıdakıları təmin etməkdir:

- risklərin düzgün və hərtərəfli qiymətləndirilməsi və idarə olunması;
- düzgün biznes, mühasibatlıq və maliyyə hesabatı funksiyaları, o cümlədən əməliyyatların düzgün təsdiqi, təşkili və qeydə alınması;
- mühasibatlıq qeydlərinin, idarəetmə məlumatlarının, normativ hesabatların tamlığı, dəqiqliyi və vaxtında hazırlanması;
- İT sistemlərinin etibarlılığı, məlumatlar və sistemlərin bütövlüyü və mühafizəsi;
- saxtakarlıq və ya qeyri-qanuni hərəkətlərin, o cümlədən aktivlərin mənimsənilməsinin aradan qaldırılması;
- qanun və qaydaların tələblərinə uyğunluq.

Rəhbərlik risklərin aşkarlanması və qiymətləndirilməsi, nəzarət sistemlərinin yaradılması və onların səmərəliliyinin yoxlanılmasına görə məsuliyyət daşıyır. Rəhbərlik Bankın daxili nəzarət sistemlərinin səmərəliliyinə nəzarət edir və mütəmadi olaraq əlavə nəzarət sistemləri tətbiq edir, yaxud da zəruri hesab olunduğu halda, mövcud nəzarət sistemlərinə düzəlişlər edir.

Bank, səmərəli əməliyyatları və müvafiq hüquqi və normativ tələblərə uyğunluğu, o cümlədən aşağıdakıları təmin etmək məqsədilə standartlar, siyasətlər və prosedurlar sistemi işləyib hazırlamışdır:

- vəzifələrin düzgün bölünməsi, o cümlədən əməliyyatların müstəqil təsdiqi tələbləri;
- əməliyyatların qeydə alınması, üzləşdirilməsi və onlara nəzarət tələbləri;
- normativ və digər hüquqi tələblərə cavab;
- nəzarət sistemləri və prosedurların sənədləşdirilməsi;
- qarşıya çıxan əməliyyat risklərinin mütəmadi qiymətləndirilməsi, müəyyən edilmiş riskləri aradan qaldırmaq üçün nəzarət sistemləri və prosedurlarının adekvatlıq tələbləri;
- əməliyyat zərərləri üzrə hesabat tələbləri və təklif olunan bərpa planı;
- şərtilik planlarının işlənib hazırlanması;
- təlim və peşəkar inkişaf;
- etika və biznes standartları; və
- risklərin azaldılması, o cümlədən səmərəli olduqda, sığorta.

Ölçüsü və mürəkkəbliyindən asılı olaraq, əməliyyatların təsdiqi üçün tələblər iyerarxiyası vardır. Əməliyyatların çoxu avtomatikdir və Bank avtomatlaşdırılmış nəzarət sistemindən istifadə edir.

Daxili audit xidmətinin əsas funksiyalarına daxildir:

- bütövlükdə daxili nəzarət sisteminin auditi və səmərəliliyinin qiymətləndirilməsi, əsas rəhbərlik strukturlarının qərarlarının icrası;
- Bank risklərinin və kredit təşkilatında daxili sənədlərlə tənzimlənən risklərin idarə edilməsi prosedurlarının qiymətləndirilmə metodologiyasının səmərəliliyinin auditi (bank əməliyyatları və tranzaksiyaları və bank risklərinin idarə olunması üçün metodlar, proqramlar, qaydalar və prosedurlar);
- avtomatlaşdırılmış informasiya sistemləri üzərindən daxili nəzarət sisteminin etibarlılığının auditi;
- mühasibatlıq və hesabat funksiyasının ədalətliliyi, tamlığı və vaxtında icrasının, maliyyə məlumatının toplanması və təqdim olunmasının etibarlılığının (o cümlədən, etibarlılığı, tamlığı və obyektivliyi) auditi və sınaqdan keçirilməsi;
- kredit təşkilatının əmlakının təhlükəsiz saxlanmasına tətbiq oluna bilən üsulların auditi;
- iqtisadi əsaslılığın, əməliyyatların və digər sövdələşmələrin səmərəliliyinin qiymətləndirilməsi;
- daxili nəzarət prosesləri və prosedurlarının auditi;
- daxili nəzarət xidməti və risklərin idarə olunması xidmətinin auditi.

Bankın standartlarına uyğunluq daxili audit tərəfindən həyata keçirilən mütəmadi yoxlamalar proqramı ilə dəstəklənir. Daxili audit funksiyası rəhbərlikdən ayrıdır və birbaşa Audit Komitəsinə və Müşahidə Şurasına hesabat verir. Daxili audit yoxlamalarının nəticələri müvafiq biznes prosesi menecerləri ilə müzakirə olunur, yekunlar isə Audit Komitəsinə, Müşahidə Şurasına və Bankın yüksək səviyyəli rəhbərliyinə təqdim olunur.

Bankın daxili nəzarət sistemi aşağıdakılardan ibarətdir:

- Müşahidə Şurası və onun komitələri;
- İdarə Heyəti;
- Maliyyə direktoru;
- risklərin idarə edilməsi funksiyası;
- təhlükəsizlik funksiyası, o cümlədən İT üzrə təhlükəsizlik;

- insan resursları funksiyası;
- daxili audit xidməti;
- daxili nəzarət (uyğunluq) xidməti;
- müəyyən edilmiş standartlar, siyasətlər və prosedurlara uyğunluq üzrə məsul olan digər əməkdaşlar, bölmə və funksiyalar, o cümlədən:
    - filialların və biznes bölmələrinin rəhbərləri;
    - biznes proseslərinin menecerləri;
    - çirkli pulların yuyulmasına qarşı tələblərə uyğunluq üzrə məsul bölmə;
    - qiymətli kağızlar bazarının peşəkar iştirakçısına nəzarətçi – qiymətli kağızlar bazarı iştirakçılarına qoyulan tələblərə uyğunluq üzrə məsul olan icraedici orqan;
    - hüquqşünas – hüquqi və normativ tələblərə uyğunluq üzrə məsul olan əməkdaş;
    - nəzarət öhdəliklərinə malik digər əməkdaşlar.

Bank risklərin idarə olunması və daxili nəzarət sistemləri, o cümlədən daxili audit funksiyası ilə bağlı ARMB-nin tələblərinə uyğundur və risklərin idarə olunması, daxili nəzarət sistemləri əməliyyatların həcmi, xarakteri və mürəkkəbliyinə müvafiqdir.

**Risklərin idarə edilməsi siyasəti və prosedurları**

Risklərin idarə edilməsi bank işinin əsasını təşkil edir və Bank əməliyyatlarının vacib elementidir. Bankın üzləşdiyi əsas risklər bazar riski, kredit riski, likvidlik riski və əməliyyat riski ilə bağlıdır.

Risklərin idarə edilməsi siyasətləri Bankın qarşılaşdığı riskləri müəyyənləşdirmək, təhlil və idarə etmək, müvafiq risk məhdudiyyətləri və nəzarətini təşkil etmək, davamlı olaraq riskin səviyyəsinə nəzarət etmək və məhdudiyyətlərə əməl etmək məqsədi daşıyır. Risklərin idarə edilməsi siyasətləri və prosedurları bazar şərtlərində, təklif edilən məhsul və xidmətlərdə, inkişaf etməkdə olan ən yaxşı təcrübədə baş verən dəyişiklikləri əks etdirmək üçün mütəmadi olaraq nəzərdən keçirilir.

Müşahidə Şurası risklərin idarə edilməsi çərçivəsində nəzarətə, əsas risklərin idarə edilməsinə nəzarətə, risklərin idarə edilməsi siyasətlərinə, o cümlədən, böyük xərclərin əhəmiyyətli dərəcədə təsdiqinə görə məsuliyyət daşıyır.

İdarə Heyəti risklərin azaldılması üzrə tədbirlərin monitorinqi və həyata keçirilməsinə, Bankın yaradılmış risk parametrləri daxilində əməliyyatların keçirilməsində əminliyin təmin edilməsinə görə məsuliyyət daşıyır. Risklərin idarə edilməsi departamentinin sədri bütövlükdə risklərin idarə edilməsi və funksiyalara əməl olunması, maliyyə və qeyri-maliyyə risklərinin müəyyənləşdirilməsi, ölçülməsi, idarə edilməsi və hesabatın verilməsi üçün ümumi prinsip və metodların həyata keçirilməsinə əmin olmağa görə məsuliyyət daşıyır. O, birbaşa İdarə Heyətinə, Müşahidə Şurasına və Risklərin İdarə Edilməsi Komitəsinə hesabat verir.

Həm portfel, həm əməliyyat səviyyəsindəki kredit, bazar və likvidlik risklərinin idarə edilməsi və nəzarəti Risklərin İdarə Edilməsi Komitəsi, Kredit Komitəsi və Aktivlərin və Öhdəliklərin İdarə Olunması Komitəsi (AÖİK) vasitəsilə təmin olunur. Qərarların qəbul edilməsi prosesinin səmərəliliyini və operativliyini təmin etmək məqsədi ilə Bank riskin növü və həcmindən asılı olaraq bir sıra kredit komitələri təşkil etmişdir.

Bazar riskləri üzrə ümumi səlahiyyət Müşahidə Şurasının sədri Vüsal Şahverdiyevin sədrlik etdiyi AÖİK-ə aiddir.

Həm xarici, həm daxili risk amilləri təşkilatın bütün səviyyələrində və sahələrində müəyyən edilərək idarə olunur və tənzimlənir. Risk amillərinin tam spektrinin və cari risklərin tənzimlənməsi prosedurlarının təminat səviyyəsinin müəyyən edilməsinə xüsusi diqqət yetirilir. Kredit və bazar risklərinin standart təhlili ilə yanaşı, Risklərin idarə edilməsi departamenti əməliyyat şöbələri ilə mütəmadi görüşlər keçirməklə və onların ixtisas sahələri üzrə ekspert rəylərini əldə etməklə maliyyə və qeyri-maliyyə risklərinin monitorinqini aparır.

**Bazar riski**

Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətlərinin bazar qiymətlərində baş verən dəyişikliklər səbəbindən qeyri-sabit olması riskidir. Bazar riski valyuta riskindən, faiz dərəcəsi riskindən və sair qiymət risklərindən ibarətdir. Bazar riski bazar qiymətlərində və xarici valyuta məzənnələrində ümumi və spesifik xarakterli dəyişikliklərin və bazar qiymətlərinin dəyişkənlik səviyyəsində dəyişikliklərin təsirinə məruz qalan faiz dərəcələrində və səhm maliyyə alətlərində açıq mövqelərlə əlaqədar yaranır.

Bazar risklərinin idarə edilməsi müəyyən parametrlər çərçivəsində bazar risklərinin idarə edilməsi və tənzimlənməsi və eyni zamanda, gəlirliliyin risklərə nisbətinin optimallaşdırılması məqsədinə xidmət edir.

Bazar riski üzrə limitlər Risklərin idarə edilməsi departamentinin tövsiyələrinə əsasən Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən müzakirə edilir və Müşahidə Şurası tərəfindən təsdiq olunur.

Bank bazar riskini maliyyə alətləri ilə, faiz dərəcələrinin ödəniş müddətləri ilə, valyuta mövqeləri ilə və zərərlər üzrə limitlərlə münasibətdə açıq mövqe limitlərini təyin etməklə tənzimləyir. Müşahidə Şurası qeyd edilən göstəricilərin mütəmadi monitorinqini və yoxlamalarını aparır.

**Faiz dərəcəsi riski**

Faiz dərəcəsi riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar faiz dərəcələrində dəyişikliklər nəticəsində dəyişəcəyi riskidir. Bank, bazar faiz dərəcələrinin səviyyələrində dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin axınına təsirinə məruz qalır. Faiz marjaları bu cür dəyişikliklər nəticəsində yüksələ bilər, ancaq eyni zamanda, gözlənilməyən dəyişikliklər baş verdikdə azala və yaxud zərərlərə gətirib çıxara bilər.

***Faiz dərəcələri arasındakı fərqin təhlili***

Faiz dərəcəsi riski, əsasən, faiz dərəcələri arasındakı fərqlərə nəzarət etməklə tənzimlənir. Aşağıdakı cədvəldə əsas maliyyə alətləri üzrə faiz dərəcələri arasındakı fərqlər təqdim olunur:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Faiz gətirməyən | 31 dekabr 2025-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 47,040 | - | - | - | - | 24,898 | 71,938 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | - | - | - | - | - | 6,969 | 6,969 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 57 | - | 3,429 | 4,691 | - | 1,839 | 10,016 |
| İnvestisiya qiymətli kağızları | 3 | | 500 | | - | - | 503 |
| Müştərilərə verilmiş kreditlər | 10,853 | 11,829 | 73,752 | 126,480 | 59,698 | - | 282,612 |
| Digər maliyyə aktivləri | - | - | - | - | - | 8,451 | 8,451 |
| **Cəmi maliyyə aktivləri** | **57,953** | **11,829** | **77,681** | **131,171** | **59,698** | **42,157** | **380,489** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 5,462 | 8,500 | 12,410 | 4,650 | - | 394 | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 56,170 | 4,949 | 37,016 | 60,500 | - | 66,246 | 224,881 |
| Müddətli borc vəsaitləri | 488 | 893 | 4,045 | 12,860 | 53,693 | - | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | 116 | - | - | 5,000 | - | - | 5,116 |
| Digər maliyyə öhdəlikləri | 35 | 72 | 288 | 914 | 443 | 4,687 | 6,439 |
| **Cəmi maliyyə öhdəlikləri** | **62,271** | **14,414** | **53,759** | **83,924** | **54,136** | **71,327** | **339,831** |
| Faiz dərəcəsi boşluğu | (4,318) | (2,585) | 23,922 | 47,247 | 5,562 | (29,170) | 40,658 |
| **Məcmu faiz dərəcəsi boşluğu** | **(4,318)** | **(6,903)** | **17,019** | **64,266** | **69,828** | **40,658** | |
| **Kreditlə bağlı öhdəliklər** | **19,551** | | | | | | |

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Faiz gətirməyən | 31 dekabr 2024-cü il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 25,013 | - | - | - | - | 24,024 | 49,037 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | - | - | - | - | - | 6,239 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | - | 3,029 | - | - | - | 425 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 42 | - | 14,372 | 2,000 | - | - | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 10,624 | 7,829 | 34,495 | 53,483 | 67,781 | - | 174,212 |
| Digər maliyyə aktivləri | - | - | - | - | - | 6,955 | 6,955 |
| **Cəmi maliyyə aktivləri** | **35,679** | **10,858** | **48,867** | **55,483** | **67,781** | **37,643** | **256,311** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | - | - | - | - | - | 419 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 32,970 | 645 | 4,034 | 17,509 | - | 75,285 | 130,443 |
| Müddətli borc vəsaitləri | 330 | 367 | 1,691 | 10,028 | 64,046 | - | 76,462 |
| Digər maliyyə öhdəlikləri | 36 | 72 | 316 | 316 | - | 4,631 | 5,371 |
| **Cəmi maliyyə öhdəlikləri** | **33,336** | **1,084** | **6,041** | **27,853** | **64,046** | **80,335** | **212,695** |
| Faiz dərəcəsi boşluğu | 2,343 | 9,774 | 42,826 | 27,630 | 3,735 | (42,692) | 43,616 |
| **Məcmu faiz dərəcəsi boşluğu** | **2,343** | **12,117** | **54,943** | **82,573** | **86,308** | **43,616** | |
| **Kreditlə bağlı öhdəliklər** | **29,018** | | | | | | |

Faiz dərəcəsi boşluqları, əsasən, bərabər və ya aşağı faiz dərəcələri ilə borcları olan müvafiq ödəmə müddətləriylə faiz öhdəliklərinin yenidən maliyyələşdirilməsi yolu ilə idarə olunur.

**Orta effektiv faiz dərəcələri**

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə faiz yaradan aktivlər və öhdəliklər üzrə orta effektiv faiz dərəcələri təqdim olunur. Bu faiz dərəcələri gəlirlilik səviyyələrinin həmin aktivlərin və öhdəliklərin ödəniş müddətinə nisbətinin təxmini hesablanmasıdır.

| | 31 dekabr 2025-ci il | | | 31 dekabr 2024-cü il | | |
|---|---|---|---|---|---|---|
| | Orta effektiv faiz dərəcəsi, % | | | Orta effektiv faiz dərəcəsi, % | | |
| | AZN | ABŞ dolları | Avro | AZN | ABŞ dolları | Avro |
| **Faiz yaradan aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6.39% | - | - | 6.25% | - | - |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 14.75% | - | - | 10.00% | - | - |
| İnvestisiya qiymətli kağızları | 15.00% | - | - | 9.13% | - | - |
| Müştərilərə verilmiş kreditlər | 16.42% | 7.66% | - | 10.36% | 7.19% | - |
| **Faiz yaradan öhdəliklər** | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 10.23% | 7.90% | - | - | - | - |
| Müştərilərə ödəniləcək vəsaitlər | 11.58% | 2.75% | - | 8.76% | 3.41% | - |
| Müddətli borc vəsaitləri | 2.67% | - | - | 3.04% | - | - |
| Buraxılmış borc qiymətli kağızları | 13.00% | - | - | - | - | - |
| Digər maliyyə öhdəlikləri | 8,04% | - | - | 7.87% | - | - |

**Faiz dərəcəsinin həssaslığının təhlili**

Faiz dərəcələri dəyişməsi təhlilinə əsaslanan faiz riskinin idarə edilməsi maliyyə aktivlərinin və öhdəliklərinin həssaslığının monitorinqi ilə həyata keçirilir. Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə mövcud olan faiz yaradan aktivlərin və öhdəliklərin bütün gəlirlilik səviyyələrində və mövqelərində 100 baza bəndi (bb) həcmində paralel enməyə və ya qalxmaya əsasən sadələşdirilmiş gedişata əsaslanan mənfəətin və ya zərərin və kapitalın (vergilər çıxılmaqla) faiz dərəcələrində dəyişikliklərə (qiymətlərin dəyişməsi riski) həssaslığının təhlili təqdim olunur:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| 100 bp paralel enmə | (559) | (690) |
| 100 bp paralel qalxma | 559 | 690 |

**Valyuta riski**

Bankın bir neçə xarici valyutada ifadə edilmiş aktiv və öhdəlikləri vardır.

Valyuta riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitlərinin hərəkətinin xarici valyutaların məzənnələrindəki dəyişikliklər nəticəsində qeyri-sabit olma riskidir. Baxmayaraq ki, Bank öz valyuta riskinin hedcləşdirilməsi tədbirlərini görür, MHBS Mühasibat Uçotu Standartlarına əsasən belə tədbirlər hedcinq əməliyyatları kimi qəbul edilmir.

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin xarici valyuta riskləri haqqında məlumat təqdim olunur:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 62,858 | 5,667 | 1,519 | 1,894 | 71,938 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 4,057 | 2,904 | 8 | - | 6,969 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 8,568 | 1,448 | - | - | 10,016 |
| İnvestisiya qiymətli kağızları | 503 | - | - | - | 503 |
| Müştərilərə verilmiş kreditlər | 274,202 | 8,410 | - | - | 282,612 |
| Digər maliyyə aktivləri | 5,949 | 2,414 | 88 | - | 8,451 |
| **Cəmi maliyyə aktivləri** | **356,137** | **20,843** | **1,615** | **1,894** | **380,489** |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 19,339 | 12,063 | 4 | 10 | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 213,537 | 7,703 | 1,767 | 1,874 | 224,881 |
| Müddətli borc vəsaitləri | 71,979 | - | - | - | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | 5,116 | - | - | - | 5,116 |
| Digər maliyyə öhdəlikləri | 6,140 | 200 | 99 | - | 6,439 |
| **Cəmi maliyyə öhdəlikləri** | **316,111** | **19,966** | **1,870** | **1,884** | **339,831** |
| **AÇIQ MÖVQE** | **40,026** | **877** | **(255)** | **10** | **40,658** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin xarici valyuta riskləri haqqında məlumat təqdim olunur:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 41,904 | 4,295 | 1,159 | 1,679 | 49,037 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 5,579 | 660 | - | - | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 3,349 | 105 | - | - | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 16,414 | - | - | - | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 165,936 | 8,276 | - | - | 174,212 |
| Digər maliyyə aktivləri | 4,006 | 2,863 | 69 | 17 | 6,955 |
| **Cəmi maliyyə aktivləri** | **237,188** | **16,199** | **1,228** | **1,696** | **256,311** |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 98 | 302 | 10 | 9 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 115,051 | 12,413 | 1,314 | 1,665 | 130,443 |
| Müddətli borc vəsaitləri | 76,462 | - | - | - | 76,462 |
| Digər maliyyə öhdəlikləri | 5,102 | 135 | 134 | - | 5,371 |
| **Cəmi maliyyə öhdəlikləri** | **196,713** | **12,850** | **1,458** | **1,674** | **212,695** |
| **AÇIQ MÖVQE** | **40,475** | **3,349** | **(230)** | **22** | **43,616** |

Bank qanunvericiliklə müəyyən edilmiş məbləğlərə əsasən, valyuta mövqeyini və uyğunluq məqsədləri üçün hesabatları idarə edir.

Manatın qeyd edilən valyutalarla münasibətdə 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə zəifləməsi nəticəsində kapital və mənfəət və ya zərər aşağıda göstərilən həcmdə arta (azala) bilərdi. Təhlil vergilər çıxılmaqla təqdim olunur və Bank hesabat dövrünün sonunda mümkün olduqlarını ehtimal etdiyi xarici valyuta məzənnələrinin dəyişikliklərinə əsaslanır. Təhlildə bütün sair parametrlərin, xüsusilə də, faiz dərəcələrinin, dəyişməz qalması ehtimal olunur.

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| ABŞ dollarının AZN-ə nisbətdə 20% qalxması | 140 | 536 |
| Avronun AZN-ə nisbətdə 20% qalxması | (41) | (37) |

Manatın qeyd edilən valyutalara qarşı 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə möhkəmlənməsi, bütün digər parametrlərin eyni saxlanılması şərti ilə, həmin valyutalara eyni həcmdə əks təsir göstərəcəkdi.

**Kredit riski**

Kredit riski müştəri və ya maliyyə aləti üzrə kontragent müqavilə üzrə öhdəliklər yerinə yetirilmədiyi təqdirdə Bankın maliyyə zərərinə uğrayacağı riskidir. Bankın portfel cəmləşmələrinin məhdudlaşdırılması üzrə qaydalar və kredit riskinə (həm uçota alınmış maliyyə aktivləri, həm də uçota alınmamış müqavilə öhdəlikləri üçün) fəal surətdə nəzarət edən Kredit Komitəsinin yaradılması barədə qaydalar daxil olmaqla, kredit risklərinin tənzimlənməsi üçün siyasət və prosedurları vardır. Kredit siyasəti İdarə Heyəti tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Kredit siyasətində aşağıdakılar əks olunur:

- kredit ərizələrinə baxılması və onların təsdiqlənməsi prosedurları;
- borcalanların (korporativ və fərdi) kredit qabiliyyətinin qiymətləndirilməsi metodikası;
- kontragentlərin, emitentlərin və sığorta şirkətlərinin kredit qabiliyyətinin qiymətləndirilməsi metodikası;
- girovun qiymətləndirilməsi metodikası;
- kreditlərin sənədləşməsinə (rəsmiləşdirilməsinə) dair tələblər;
- kreditlərin və sair kredit risklərinin mütəmadi monitorinqi üzrə prosedurlar.

Korporativ kredit ərizələri müvafiq müştəri rəhbərliyi tərəfindən yazılır və sonra korporativ kredit portfeli üzrə məsuliyyət daşıyan Kredit departamentinə ötürülür. Hesabatların təhlili müştərinin biznes və maliyyə fəaliyyətini nəzərə alan strukturlaşdırılmış təhlilə əsaslanır. Kredit müqaviləsi və hesabata müstəqil olaraq Kredit anderraytinqi departamenti tərəfindən baxılır və kredit siyasətinin tələblərinə uyğun olması təsdiqi üzrə ikinci rəy verilir. Kredit Komitəsi, Kredit departamenti və Kredit anderraytinqi departamenti tərəfindən təqdim edilmiş kredit ərizələrinə baxır. Fərdi əməliyyatlar, gözlənilən Kredit Komitəsinin yekun təsdiqindən və xüsusi risklərdən asılı olaraq həmçinin Hüquq, Mühasibatlıq və Vergi departamentləri tərəfindən də baxılır.

Bank davamlı olaraq fərdi kredit risklərinin fəaliyyətinə nəzarət edir və müntəzəm olaraq müştərilərin ödəmə qabiliyyətini yenidən müəyyənləşdirir. Yenidən baxış borcalan tərəfindən təqdim edilmiş və ya Bank tərəfindən əldə edilmiş müştərinin ən son maliyyə hesabatları və bu kimi məlumatlara əsaslanır. Kredit departamentinin Pərakəndə kredit bölməsi hər kredit məhsulu meyarının qiymətləndirilməsindən və Kredit anderraytinqi departamenti və Risklərin idarə edilməsi departamenti tərəfindən işlənib hazırlanmış ərizə məlumatlarının təsdiqi prosedurlarından istifadə etməklə fərdi kredit ərizələrinə baxır.

Fiziki şəxs olan müştəri təhlilindən başqa kredit portfeli kredit konsentrasiyası və bazar riskləri ilə bağlı olaraq Risklərin idarə edilməsi departamenti tərəfindən qiymətləndirilir.

Kredit riskinin maksimal dərəcəsi, bir qayda olaraq, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində və uçota alınmamış müqavilə öhdəliklərinin məbləğlərində əks olunur. Potensial kredit riskinin azaldılması məqsədi ilə aktivlərin və öhdəliklərin mümkün qarşılıqlı əvəzləşdirilməsi effekti əhəmiyyətli xarakter daşımır.

Aşağıdakı cədvəldə hesabat tarixinə maliyyə aktivləri ilə bağlı maksimal kredit riski təqdim olunur:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri (kassadakı nağd pul çıxılmaqla) | 54,965 | 31,635 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 6,969 | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 10,016 | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 503 | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 296,965 | 190,643 |
| Digər maliyyə aktivləri | 8,788 | 7,292 |
| Zəmanətlər | 10,626 | 19,188 |
| İstifadə edilməmiş kredit xətləri | 9,005 | 9,910 |
| **Cəmi maksimum məruz qalma** | **397,837** | **284,775** |

**Kredit riski – Ehtimal olunan kredit zərərlərindən yaranan məbləğlər**

**Dəyərsizləşmənin qiymətləndirilməsində istifadə olunan məlumatlar, ehtimallar və üsullar**

***Kredit riskində əhəmiyyətli artım***

İlkin tanınmadan sonra maliyyə aləti üzrə defolt riskinin əhəmiyyətli dərəcədə artdığını və ya artmadığını müəyyən edərkən Bank əlavə xərc yaxud da səy tələb etməyən məqbul və yardımçı məlumatı nəzərdən keçirir. Bura kəmiyyət və keyfiyyət haqqında məlumat, Bankın keçmiş təcrübəsi, kredit qiymətləndirməsinə əsaslanan təhlil və proqnozlaşdırılan məlumatlar daxildir.

Qiymətləndirmənin əsas məqsədi aşağıdakıları müqayisə etməklə kredit riskində əhəmiyyətli artımın baş verib-vermədiyini müəyyən etməkdir:

- ömürlük defolt ehtimalının (DE) hesabat tarixində qalan hissəsi; və
- kredit riskinin ilkin tanınması zamanı hazırkı vaxt üçün hesablanmış ömürlük defolt ehtimalının (DE) qalan hissəsi (vaxtından əvvəl ödəniş gözləntilərində müvafiq dəyişikliklərə uyğunlaşdırılmış).

Bank kredit riskində əhəmiyyətli artımın olub-olmadığını müəyyən etmək üçün üç meyardan istifadə edir:

- defolt ehtimalında (DE) dəyişikliyə əsaslanan kəmiyyət testi;
- keyfiyyət göstəriciləri;
- ödəniş müddətindən sonra 1-7 günlük gecikmənin nəzərə alındığı maliyyə qurumları və qiymətli kağız emitentləri ilə əməliyyatlar istisna olmaqla, ödəniş müddətindən sonra 30 günlük gecikmə.

***Defolt ehtimalının müddət strukturunun yaradılması***

Bank kredit riski haqqında ödəniş və defolt məlumatını məhsul növü və borcalan seqmentinə əsasən toplayır. Bəzi portfellərdə kredit bürosundan satın alınmış məlumat da istifadə edilir.

Bank toplanılan məlumatı təhlil etmək üçün statistik modellərdən istifadə edir və risklərin bütün müddəti üçün defolt ehtimalının qalan hissəsini, zamanla bunların necə dəyişəcəyini hesablayır.

***Kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığının müəyyən edilməsi***

Bank hər hesabat dövründə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb-artmadığını qiymətləndirir. Kredit riskində artımın əhəmiyyətli olub-olmadığının müəyyən edilməsi maliyyə alətnin xüsusiyyətlərindən, borcalandan və coğrafi regiondan asılıdır. Əhəmiyyətli sayılan amillər icarə növündən, xüsusilə də müştərinin korporativ və ya fərdi olmasından asılı olaraq dəyişir.

Ümumi göstərici kimi, aşağıdakı hallarda kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmış hesab olunur (Bankın keyfiyyət meyarına əsasən):

- maliyyə qurumları və qiymətli kağız emitentləri ilə əməliyyatlar istisna olmaqla bütün seqmentlərdə vaxtı 31-90 gün keçmiş borc öhdəliklərinin olması faktı;
- maliyyə qurumları və qiymətli kağız emitentləri ilə əməliyyatlar üzrə vaxtı 1-7 iş günü keçmiş borc öhdəliklərinin olması faktı;
- pərakəndə portfelində digər borcalan müqavilələri çərçivəsində vaxtı 90 gün keçmiş borc öhdəliklərinin olması faktı;
- ana şirkət və ya digər asılı müəssisənin maliyyə dəstəyinin azaldılması;
- Bankın borcalana verilmiş məhsullar haqqında etibarlı mənfi məlumat alması.

Gecikmə günləri tam ödənişin əldə olunmadığı ilk gündən başlayaraq hesablanır. Gecikmə günləri borcalanın ixtiyarında olan möhlət və kəmiyyət meyarı (yalnız maliyyə qurumları və qiymətli kağız emitentləri ilə) nəzərə alınmadan hesablanır:

- Cədvəl 1-də verilən meyarlara əsasən tanınma tarixinə olan xarici reytinqlə müqayisədə hesabat tarixinə olan xarici reytinqdə nisbi dəyişiklik.

Cədvəl 1: İlkin tanınma zamanı xarici reytinqdən asılı olaraq kredit riskində əhəmiyyətli artımın müəyyən edilməsi üçün meyarlar.

| **İlkin tanınma zamanı kontragentlərin xarici reytinqi** | | | | **Təyin edilən kredit riskində əhəmiyyətli artım** |
|---|---|---|---|---|
| | **Moody’s** | **Fitch** | **S&P** | |
| 1 | AAA | AAA | AAA | Aşağı kredit riski: reytinq 3 səviyyə aşağı düşmədikcə kateqoriya dəyişmir. |
| 2 | Aa1 | AA+ | AA+ | |
| 3 | Aa2 | AA | AA | |
| 4 | Aa3 | AA- | AA- | |
| 5 | A1 | A+ | A+ | |
| 6 | A2 | A | A | |
| 7 | A3 | A- | A- | |
| 8 | Baa1 | BBB+ | BBB+ | |
| 9 | Baa2 | BBB | BBB | |
| 10 | Baa3 | BBB- | BBB- | |
| 11 | Ba1 | BB+ | BB+ | Reytinqdə 2 pillə enmə |
| 12 | Ba2 | BB | BB | |
| 13 | Ba3 | BB- | BB- | |
| 14 | B1 | B+ | B+ | Reytinqdə 1 pillə enmə |
| 15 | B2 | B | B | |
| 16 | B3 | B- | B- | |
| 17 | Caa1 | CCC-C | CCC-C | |
| 18 | Caa2 | | | |
| 19 | Caa3 | | | |
| 20 | Ca-C | | | |
| 21 | D | D | D | |

İlkin tanınma ilə müqayisədə kredit riskində əhəmiyyətli artımın olmadığına dair sübut olarsa, alətin zərər üzrə ehtiyatı yenidən 12 aylıq ehtimal olunan kredit zərəri kimi ölçülür. Kredit riskində artımın bəzi keyfiyyət göstəriciləri, məsələn, uzadılmış ödəniş müddətində ödənişin gecikdirilməsi göstərici özü yox olduqdan sonra qalan defolt riskinin artmasına işarə ola bilər. Belə olan hallarda Bank maliyyə aktivinin kredit riskinin kifayət qədər azaldığını sübut etmək üçün ödənişlərin vaxtında edilməsi üçün sınaq müddəti təyin edir. Maliyyə alətinin bərpası və 1-ci Mərhələyə keçidi üçün sınaq meyarları aşağıdakılardır:

- pərakəndə borcalanlar üçün üç ardıcıl hesabat ayı ərzində vaxtı keçmiş borcun olmaması (0 gecikdirilmiş gün);
- annuitet ödənişləri olan korporativ müştərilər və fərdi sahibkarlar üçün üç ardıcıl hesabat ayı ərzində vaxtı keçmiş borcun olmaması və borcluluğun 5 gündən çox çəkməməsi;
- qeyri-annuitet ödənişləri olan korporativ müştərilər və fərdi sahibkarlar üçün altı ardıcıl hesabat ayı ərzində vaxtı keçmiş borcun olmaması və borcluluğun 5 gündən çox çəkməməsi.

Bank kredit riskində əhəmiyyətli artımları müəyyən etmək üçün istifadə etdiyi meyarların effektivliyini müntəzəm yoxlayaraq:

- meyarların kredit riskinə məruz qalan məbləğdə defolt baş verməzdən əvvəl kredit riskində əhəmiyyətli artımı müəyyən edə bildiyini;
- kredit riskində əhəmiyyətli artımın müəyyən edilməsi ilə defoltun yaranması arasında ortalama müddətin ağlabatan olduğunu;
- kredit riskinə məruz qalmaların ümumən 12 aylıq ehtimal olunan kredit zərərini ölçməsindən kredit üzrə dəyərsizləşməyə birbaşa keçmədiyini; və
- 12 aylıq ehtimal olunan kredit zərəri (1-ci Mərhələ) və ömürlük ehtimal olunan kredit zərəri qiymətləndirməsi (2-ci Mərhələ) arasında keçidlər nəticəsində zərər ehtiyatında ixtiyari qeyri-sabitliyin olmadığını təsdiq edir.

***Defoltun açıqlaması***

Maliyyə alətinin dəyərsizləşməsi hadisəsi, pərakəndə borcalanlar portfeli istisna olmaqla, bütün portfellərdə borcalan səviyyəsində müəyyən edilir. Pərakəndə borcalanlar üçün dəyərsizləşmə hadisəsi maliyyə aləti səviyyəsində müəyyən edilir. Bank aşağıdakı hallarda maliyyə alətinin defoltda olduğunu hesab edir:

- maliyyə qurumları və qiymətli kağız emitentləri ilə əməliyyatlar istisna olmaqla bütün seqmentlərdə hesabat tarixində ödənişin 90 təqvim günündən çox gecikməsi;
- maliyyə qurumları və qiymətli kağız emitentləri ilə əməliyyatlar üzrə hesabat tarixinə ödənişin 7 iş günündən çox gecikməsi;
- kontragent/emitent məhkəmə tərəfindən müflis elan olunmuşdur və ya məhkəmə borcalanla bağlı iflas prosedurunu başlatmışdır. Bu meyar pərakəndə borcalanlar portfeli istisna olmaqla bütün portfellərə şamil edilir;
- hesabat tarixində müqaviləyə 4 və ya 5-ci kateqoriya normativ keyfiyyətin təyin edilməsi;
- borcalanın maliyyə çətinlikləri ilə bağlı defolt/məcburi restrukturizasiya (maliyyə qurumları və qiymətli kağızlarla əməliyyatlar istisna olmaqla tətbiq edilir). Defolt/məcburi restrukturizasiya borcalanın kredit keyfiyyətinin pisləşməsi və müqavilə üzrə öhdəliklərini yerinə yetirmək qabiliyyətinin olmaması nəticəsində müqavilə şərtlərinə edilmiş Bank tərəfindən məcburi restrukturizasiya kimi tanınan dəyişiklikləri nəzərdə tutur;
- lisenziyanın geri alınması və müvəqqəti rəhbərliyin qurulması (maliyyə qurumları və qiymətli kağız emitentlərinə tətbiq edilir).

Borcalanın defoltda olub-olmadığını qiymətləndirərkən Bankın nəzərə aldığı göstəricilər:

- keyfiyyət;
- kəmiyyət – məsələn, gecikmə statusu və eyni emitentin başqa öhdəlik üzrə Banka ödəniş etməməsi; və
- Bank daxilində hazırlanan və xarici mənbələrdən alınan məlumata əsaslanan göstəricilər.

Maliyyə alətinin defoltda olub-olmadığını qiymətləndirmək üçün məlumatlar və onların əhəmiyyəti şəraitdəki dəyişiklikləri əks etdirməsi üçün vaxtaşırı dəyişə bilər.

***Proqnozlaşdırılan məlumatların tətbiqi***

Bank proqnozlaşdırılan məlumatlardan həm alətin ilkin tanınmasından sonra kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını qiymətləndirərkən, həm də ehtimal olunan kredit zərərini hesablayarkən istifadə edir.

Bank bir iqtisadi ssenari hazırlayır: baza hadisəsi. Baza hadisəsi Bankın strateji planlama və büdcə tərtibatı kimi digər məqsədlərlə istifadə etdiyi məlumatlara uyğunlaşdırılır. Defolt üzrə tarixi məlumatda ARMB-nin bank sistemində cəmi fiziki şəxslərə verilmiş kreditlər üzrə gecikən kreditlərin payı statistikasından istifadə edilir. Makroiqtisadi məlumatların təsirinin qiymətləndirilməsi ən azı hər il aparılmalıdır.

Bank tarixi məlumatı təhlil etməklə bütün kredit portfeli üçün (qiymətli kağızlar portfeli, maliyyə qurumlarına dair tələblər daxil olmaqla) kredit riski və kredit zərərlərinə səbəb olan əsas amilləri müəyyən etmiş və sənədləşdirmiş, makroiqtisadi dəyişənlər, kredit riski və kredit zərərləri arasında əlaqələri qiymətləndirmişdir.

Əsas amil ÜDM-in artım proqnozudur. 31 dekabr 2025-ci il tarixinə istifadə olunan iqtisadi ssenarilərə 31 dekabr 2026-cı ildən 2029-cu ilədək Azərbaycan Respublikası üçün aşağıdakı əsas göstəricilər daxil olmuşdur.

| | 2025 | 2026 | 2027 | 2028 | 2029 |
|---|---|---|---|---|---|
| Real ÜDM-də artım | 2.50% | 2.50% | 2.50% | 2.50% | 2.50% |

Əsas göstərici və müxtəlif maliyyə aktivləri portfellərinin defolt və zərər dərəcələri arasında əlaqələr tarixi məlumatların təhlili əsasında proqnozlaşdırılmışdır.

Makroiqtisadi modeli qurarkən Bank defolt haqqında xarici statistikalardan (NPL) istifadə edir, belə ki, defoltlar haqqında daxili statistika kifayət etmir.

***Dəyişdirilmiş maliyyə aktivləri***

Kredit müqaviləsinin şərtləri bazar şəraitinin dəyişməsi, müştərilərin saxlanılması və müştərinin kredit qabiliyyətliliyinin cari və ya potensial pisləşməsi ilə bağlı olmayan digər amillər daxil olmaqla, bir sıra səbəblərdən dəyişdirilə bilər. 2 saylı Qeyddə təsvir edilən uçot siyasətinə əsasən şərtləri dəyişdirilmiş mövcud kreditin tanınması dayandırıla və şərtləri yenidən razılaşdırılaraq ədalətli dəyərdə yenidən tanına bilər.

Maliyyə aktivinin müqavilə şərtlərinin modifikasiyası kredit riskində əhəmiyyətli artımın göstəricisidir. Bura maliyyə aktivinin defolta uğramasının göstəricisi olan defolt/məcburi restrukturizasiya nəticəsində edilmiş modifikasiya daxil deyil. Kredit riskinə məruz qalan məbləğin dəyərsizləşməmiş/defolta uğramamış hesab edilməsi və ya defolt ehtimalının zərər üzrə ehtiyatın 12 aylıq gözəlnilən kredit zərəri məbləğində hesablanacağı qədər azalması üçün müştərinin müəyyən müddət ərzində vaxtlı-vaxtında ödəniş etməsi tələb olunur.

Bank borcları toplamaq imkanını maksimum artırmaq və defolt riskini minimuma endirmək üçün müştərilərə verilmiş kreditlərin şərtlərini maliyyə çətinlikləri kimi ("müddətin uzadılması tədbirləri" kimi istinad edilir) yenidən razılaşdırır. Bankın müddəti uzatma siyasəti çərçivəsində kredit müddəti seçmə şəklində borclu öz borcunu ödəyə bilmədiyi halda və ya defolt riski yüksək olduqda, borclunun ilkin müqavilə şərtləri üzrə ödəniş etmək üçün bütün lazımi addımları atdığına dair sübut olduqda və borclunun yeni şərtlərə əməl edə biləcəyi gözlənildikdə uzadılır.

Yeni şərtlərə adətən ödəniş müddətinin uzadılması, faiz ödənişlərinin zamanlamasının və faiz dərəcəsinin dəyişməsi daxildir. Həm pərakəndə, həm də korporativ kreditlər müddətin uzadılması siyasətinin predmeti ola bilər.

Bankın müddətin uzadılması siyasətinin bir hissəsi kimi dəyişikliyə uğramış maliyyə aktivləri üçün defolt ehtimalı proqnozu dəyişikliyin Bankın faiz və əsas məbləği toplamaq qabiliyyətinin artırıb-artırmadığını və ya bərpa etdiyini və Bankın müddəti uzatmaq sahəsində keçmiş təcrübəsini əks etdirir. Bu prosesin bir hissəsi kimi Bank borcalanın ödəniş fəaliyyətini dəyişdirilmiş müqavilə şərtləri ilə qarşılıqlı qiymətləndirir və müxtəlif davranış göstəricilərini nəzərə alır.

Ümumiyyətlə, müddətin uzadılması kredit riskində əhəmiyyətli artımın keyfiyyət göstəricisidir və müddətin uzadılması gözləntiləri alətin kredit üzrə dəyərsizləşməsinin sübutu ola bilər. Kredit riskinə məruz qalan məbləğin dəyərsizləşməmiş/defolta uğramamış hesab edilməsi və ya defolt ehtimalının zərər üzrə ehtiyatın 12 aylıq ehtimal olunan kredit zərəri məbləğində hesablanacağı qədər azalması üçün müştərinin müəyyən müddət ərzində vaxtlı-vaxtında ödəniş etməsi tələb olunur.

***Ehtimal olunan kredit zərərinin qiymətləndirilməsi***

Ehtimal olunan kredit zərərinin qiymətləndirilməsi zamanı əsas amillər aşağıdakı dəyişənlərin müddət strukturudur:

- defolt ehtimalı (DE);
- defolt zamanı yaranan zərər (DZYZ);
- defolt vəziyyətində riskə məruz qalma (DVRMQ).

1-ci mərhələdə riskə məruz qalan məbləğ üzrə ehtimal olunan kredit zərəri 12 aylıq defolt ehtimalı (DE), defolt zamanı yaranan zərər (DZYZ) və defolt vəziyyətində riskə məruz qalmaya (DVRMQ) vurulmaqla hesablanır.

Defolt ehtimalını hesablama metodologiyası “Defolt ehtimalının müddət strukturunun yaradılması” başlığı altında müzakirə edilmişdir.

Bank defolt zamanı yaranan zərər (DZYZ) parametrlərini defoltlu kontragentlərə qarşı iddialar üzrə vəsaitlərin qaytarılma əmsalı tarixçəsi əsasında hesablayır. Defolt zamanı yaranan zərər (DZYZ) modelləri hər seqmentdə defoltlu müştərilər üçün əsas və faiz məbləğlərinin ödənişini nəzərdə tutur. Korporativ portfeldə ödənilməli vəsaitlərin məbləği müştəriyə əsasən, kredit kartları və istehlakçı krediti portfellərində isə müqavilə səviyyəsində hesablanır. Ödənilməli vəsaitlərin məbləği diskontlaşdırılmış pul axını əsası ilə diskont amili kimi əldə olan ilk müqavilə qiymətindən istifadə etməklə hesablanır. Belə ki, bu başlanğıcda effektiv faiz dərəcəsinin ən yaxşı göstəricisi sayılır. İpoteka kreditlərində girovlar diskontlaşdırılır.

Defolt vəziyyətində riskə məruz qalma (DVRMQ) defolt zamanı riskli mövqenin ehtimal olunan məbləğini əks etdirir. Bank defolt vəziyyətində riskə məruz qalmanı (DVRMQ) cari risk məbləği və müqaviləyə əsasən ayrılan və amortizasiyadan yaranan cari məbləğdə mümkün dəyişikliklərə əsasən hesablayır. Maliyyə aktivinin defolt vəziyyətində riskə məruz qalması (DVRMQ) onun defolt anındakı ümumi balans dəyəridir. Kredit vermək öhdəlikləri üçün defolt vəziyyətində riskə məruz qalma (DVRMQ) tarixi müşahidələr əsasında hesablanan müqavilə üzrə istifadə edilə bilən mümkün gələcək məbləğlərdir.

Yuxarıda qeyd edildiyi kimi və 1-ci mərhələ maliyyə aktivləri üzrə maksimum 12 aylıq defolt ehtimalından istifadə etməklə, Bank ehtimal olunan kredit zərərini kredit riskinə məruz qaldığı maksimal müqavilə müddəti ərzində (borcalanın müddəti uzatmaq variantları daxil olmaqla) defolt riskini nəzərə almaqla hesablayır (hətta Bank kredit risklərini idarə etmək məqsədləri ilə daha uzun müddəti nəzərdə tutduqda belə). Maksimal müqavilə müddəti Bankın avans ödənişini tələb etmək və ya kredit öhdəliyinə xitam vermək hüququ yarandığı tarixədək uzanır.

Parametr kollektiv əsasla modelləşdirilərkən maliyyə alətləri alət növünə əsasən qruplaşdırılır.

Xüsusi qrup daxilində riskli mövqelərin yekcins qalmasını təmin etmək üçün qruplaşdırmalar müntəzəm olaraq nəzərdən keçirilir.

Bankın məhdud tarixi məlumatlara malik olduğu portfellər üçün, daxili mövcud məlumatlara əlavə olaraq kənar müqayisəli məlumatlardan istifadə edilir. Ehtimal olunan kredit zərərinin qiymətləndirilməsi üçün kənar müqayisəli məlumatın əhəmiyyətli olduğu portfellər aşağıdakılardır:

| | | Kənar müqayisəli məlumat | |
|---|---|---|---|
| | **Məruz qalma** | **Defolt ehtimalı** | **Defolt zamanı yaranan zərər** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 54,965 | “Moody’s” defolt araşdırması | “S&P” bərpa araşdırmaları |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 10,016 | “Moody’s” defolt araşdırması | “S&P” bərpa araşdırmaları |
| İnvestisiya qiymətli kağızları | 503 | “Moody’s” defolt araşdırması | “S&P” bərpa araşdırmaları |

**Likvidlik riski**

Likvidlik riski Bankın hesablaşması nağd pul və ya digər maliyyə aktivləri ilə aparılan maliyyə öhdəlikləri ilə bağlı öhdəliklərinin yerinə yetirilməsində çətinliklərlə üzləşməsi riskidir. Likvidlik riski aktivlərlə öhdəliklərin ödəniş müddətləri arasında uyğunsuzluq olduqda yaranır. Aktivlərin və öhdəliklərin ödəniş müddətlərinin və faiz dərəcələrinin uyğunlaşdırılması yaxud tənzimlənən uyğunsuzluğu likvidliyin idarə edilməsində əsas rol oynayır. Tam uyğunluğun təmin edilməsi maliyyə qurumları üçün müstəsnalıq təşkil edir, çünki məşğul olduqları əməliyyatlar, adətən, qeyri-müəyyən müddətlərlə və növlərin müxtəlifliyi ilə səciyyələnir. Ödəniş müddətləri arasında fərq (uyğunsuzluq) olduqda, mənfəətlilik səviyyəsi arta bilər, lakin eyni zamanda, zərərlərin yaranması riski də artır. Bank, pul vəsaitlərinin hərəkəti ilə bağlı bütün öhdəliklərin vaxtlı-vaxtında yerinə yetirilməsi üçün zəruri həcmdə vəsaitlərin mövcudluğunu təmin etmək məqsədi ilə likvidliyini idarə edir və tənzimləyir. Likvidlik siyasəti Müşahidə Şurası tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Bank buraxılmış borc qiymətli kağızlarından, banklardan alınmış uzun və qısa müddətli kreditlərdən, əsas korporativ və fərdi müştərilərindən qəbul edilmiş depozitlərdən ibarət olan və yüksək likvidli aktivlərin diversifikasiya olunmuş portfeli ilə müşayiət olunan diversifikasiyalı və sabit maliyyələşdirmə bazasını fəal surətdə dəstəkləməyə çalışır ki, gözlənilməyən likvidlik tələbatına operativ və səmərəli qaydada cavab verə bilsin. Likvidliyin idarə edilməsi siyasəti aşağıdakılardan ibarətdir:

- əsas valyutalar üzrə pul vəsaitlərinin hərəkətinin proqnozlaşdırılması və onlarla əlaqədar tələb olunacaq likvid aktivlərin səviyyəsinin nəzərə alınması;
- maliyyələşdirmə mənbələrinin müxtəlifliyinin təmin edilməsi;
- borcların cəmləşməsinin və profillərinin tənzimlənməsi;
- borcların maliyyələşdirilməsi planlarının tərtib edilməsi;
- pul vəsaitlərinin hərəkətinin kəsilməsinə qarşı bir tədbir kimi yüksək likvidli, asanlıqla satıla bilən aktivlər portfelinin təmin edilməsi;
- fövqəladə hallarda likvidliyin və maliyyələşdirmənin təmin edilməsi üçün planların hazırlanması;
- likvidlik əmsallarının normativ tələblərə uyğun olub-olmamasının izlənməsi.

Xəzinədarlıq departamenti Bankın müxtəlif qurumlarından onların maliyyə aktivlərinin və öhdəliklərinin likvidlik göstəriciləri haqqında və proqnozlaşdırılan gələcək əməliyyatlarla və fəaliyyət növləri ilə bağlı digər proqnozlaşdırılan pul vəsaitlərinin hərəkəti haqqında təfərrüatlı məlumatlar alır. Daha sonra, Xəzinədarlıq departamenti tələb olunan qısamüddətli likvid aktivlərin adekvat portfelini təmin edir. Həmin portfel, əsasən, qısamüddətli likvid ticari qiymətli kağızlardan, banklara verilmiş kreditlərdən və sair banklararası alətlərdən ibarət olmaqla, bütövlüklə Bank üçün yetərli likvidliyi təmin etmək məqsədi daşıyır.

Xəzinədarlıq departamenti gündəlik likvidlik mövqeyinin monitorinqini və həm normal, həm ən çətin bazar şəraitlərini əks etdirən müxtəlif ssenarilərlə mütəmadi likvidlik stres testlərini aparır. Normal bazar şəraitində likvidlik mövqeyini əks etdirən likvidlik haqqında hesabatlar rəhbərliyə hər həftə təqdim olunur. Likvidliyin tənzimlənməsi ilə bağlı qərarlar AÖİK tərəfindən qəbul edilir və Xəzinədarlıq departamenti tərəfindən icra olunur.

Aşağıdakı cədvəllərdə mümkün ən erkən ödəniş müddətinə əsasən maliyyə öhdəlikləri və kreditlərlə bağlı öhdəliklər üzrə diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti təqdim olunur. Cədvəllərdə təqdim edilən cəmi məxaric müqavilələrdə nəzərdə tutulan maliyyə öhdəlikləri və ya öhdəliklər üzrə diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkətidir. Buraxılmış maliyyə zəmanətləri müqavilələrinə gəldikdə isə, zəmanətin maksimal məbləği həmin zəmanətin yerinə yetirilməsinə dair tələb irəli sürə bilən ən erkən dövrə aid edilir.

31 dekabr 2025-ci il tarixinə maliyyə öhdəliklərinin ödəniş müddətlərinin təhlili aşağıdakı kimidir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Cəmi məxaric | Cəmi balans dəyəri |
|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə öhdəliklər** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 6,069 | 8,777 | 12,862 | 5,353 | - | 33,061 | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 124,470 | 6,503 | 43,009 | 64,226 | - | 238,208 | 224,881 |
| Müddətli borc vəsaitləri | 854 | 1,600 | 5,319 | 21,089 | 64,473 | 93,335 | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | 163 | - | 488 | 5,650 | - | 6,301 | 5,116 |
| Digər maliyyə öhdəlikləri | 4,731 | 92 | 368 | 1,144 | 523 | 6,858 | 6,439 |
| **Cəmi maliyyə öhdəlikləri** | **136,287** | **16,972** | **62,046** | **97,462** | **64,996** | **377,763** | **339,831** |
| **Kreditlə bağlı öhdəliklər** | **19,631** | | | | | | |

31 dekabr 2024-cü il tarixinə maliyyə öhdəliklərinin ödəniş müddətlərinin təhlili aşağıdakı kimidir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Cəmi məxaric | Cəmi balans dəyəri |
|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə öhdəliklər** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 419 | - | - | - | - | 419 | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 108,444 | 1,004 | 5,542 | 18,809 | - | 133,799 | 130,443 |
| Müddətli borc vəsaitləri | 331 | 369 | 1,729 | 11,304 | 86,407 | 100,140 | 76,462 |
| Digər maliyyə öhdəlikləri | 4,668 | 73 | 328 | 361 | - | 5,430 | 5,371 |
| **Cəmi maliyyə öhdəlikləri** | **113,862** | **1,446** | **7,599** | **30,474** | **86,407** | **239,788** | **212,695** |
| **Kreditlə bağlı öhdəliklər** | **29,098** | | | | | | |

Azərbaycan qanunvericiliyinə uyğun olaraq fiziki və hüquqi şəxslər, əksər hallarda hesablanmış faizlər çıxılmaqla, istənilən vaxt müddətli depozitlərini geri götürə bilərlər.

Bu depozitlər göstərilən ödəmə tarixlərinə uyğun olaraq təsnif edilir. Bank rəhbərliyi fiziki və hüquqi şəxslərin müddətli depozitlərini göstərilən ödəmə tarixlərindən əvvəl geri götürəcəyini ehtimal etmir. Bundan əlavə, depozit sahibləri, müddət başa çatdıqda mövcud tələbat müqavilələrinin müddətini artırmağa meyllidirlər.

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda qeyd edilmiş məbləğlərin müqavilə üzrə ödəmə müddətinə görə təhlili göstərilir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Vaxtı keçmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 71,938 | - | - | - | - | - | 71,938 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 6,969 | - | - | - | - | - | 6,969 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 1,896 | - | 3,429 | 4,691 | - | - | 10,016 |
| İnvestisiya qiymətli kağızları | 3 | - | 500 | - | - | - | 503 |
| Müştərilərə verilmiş kreditlər | 10,853 | 11,829 | 73,752 | 126,480 | 40,277 | 19,421 | 282,612 |
| Digər maliyyə aktivləri | 8,451 | - | - | - | - | - | 8,451 |
| **Cəmi maliyyə aktivləri** | **100,110** | **11,829** | **77,681** | **131,171** | **40,277** | **19,421** | **380,489** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 5,856 | 8,500 | 12,410 | 4,650 | - | - | 31,416 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 122,416 | 4,949 | 37,016 | 60,500 | - | - | 224,881 |
| Müddətli borc vəsaitləri | 488 | 893 | 4,045 | 12,860 | 53,693 | - | 71,979 |
| Buraxılmış borc qiymətli kağızları | 116 | - | - | 5,000 | - | - | 5,116 |
| Digər maliyyə öhdəlikləri | 4,722 | 72 | 288 | 914 | 443 | - | 6,439 |
| **Cəmi maliyyə öhdəlikləri** | **133,598** | **14,414** | **53,759** | **83,924** | **54,136** | **-** | **339,831** |
| Likvidlik boşluğu | (33,488) | (2,585) | 23,922 | 47,247 | (13,859) | 19,421 | 40,658 |
| **Məcmu likvidlik boşluğu** | **(33,488)** | **(36,073)** | **(12,151)** | **35,096** | **21,237** | **40,658** | |
| **Kreditlə bağlı öhdəliklər** | **19,631** | | | | | | |

Müştəri cari hesabları və müddətli depozitləri müqavilə şərtlərinə uyğun olaraq tələb əsasında ödənilə bilən olması və "1 aya qədər" ödəmə müddəti sütununda təsnifləşdirilməsinə baxmayaraq, Bankın tarixi təcrübəsi bu qalıqların sabit davranış modeli nümayiş etdirdiyini göstərir. 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində müştəri cari hesabları və müddətli depozitlərin gündəlik qalıqları təxminən 88,300 AZN, 31 dekabr 2025-ci il tarixinə ilin sonuna olan qalıqları isə 120,759 AZN təşkil edərək bu vəsaitlərin əhəmiyyətli hissəsinin müştərilər tərəfindən uzadılmış müddət ərzində saxlanıldığını göstərir. Nəticə etibarilə müqavilə şərtlərinə əsasən ödəmə müddətinin təhlili bu qalıqların əsas davranış likvidliyini tam əks etdirmir. Buna baxmayaraq, rəhbərliyin qiymətləndirməsinə əsasən Bank ümumilikdə likvidlik mövqeyini qoruyub saxlayır və normal fəaliyyət şərtləri əsasında əhəmiyyətli likvidlik çatışmazlığı ilə üzləşəcəyini proqnozlaşdırmır.

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda qeyd edilmiş məbləğlərin müqavilə üzrə ödəmə müddətinə görə təhlili göstərilir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 5 ildən artıq | Vaxtı keçmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 49,037 | - | - | - | - | - | 49,037 |
| ARMB-də saxlanılan məcburi ehtiyatlar | 6,239 | - | - | - | - | - | 6,239 |
| Banklardan və digər maliyyə qurumlarından alınacaq vəsaitlər | 425 | 3,029 | - | - | - | - | 3,454 |
| İnvestisiya qiymətli kağızları | 42 | - | 14,372 | 2,000 | - | - | 16,414 |
| Müştərilərə verilmiş kreditlər | 10,624 | 7,829 | 34,495 | 53,483 | 49,318 | 18,463 | 174,212 |
| Digər maliyyə aktivləri | 6,955 | - | - | - | - | - | 6,955 |
| **Cəmi maliyyə aktivləri** | **73,322** | **10,858** | **48,867** | **55,483** | **49,318** | **18,463** | **256,311** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | 419 | - | - | - | - | - | 419 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 108,255 | 645 | 4,034 | 17,509 | - | - | 130,443 |
| Müddətli borc vəsaitləri | 330 | 367 | 1,691 | 10,028 | 64,046 | - | 76,462 |
| Digər maliyyə öhdəlikləri | 4,667 | 72 | 316 | 316 | - | - | 5,371 |
| **Cəmi maliyyə öhdəlikləri** | **113,671** | **1,084** | **6,041** | **27,853** | **64,046** | **-** | **212,695** |
| Likvidlik boşluğu | (40,349) | 9,774 | 42,826 | 27,630 | (14,728) | 18,463 | 43,616 |
| **Məcmu likvidlik boşluğu** | **(40,349)** | **(30,575)** | **12,251** | **39,881** | **25,153** | **43,616** | |
| **Kreditlə bağlı öhdəliklər** | **29,098** | | | | | | |

Bank üç ay müddətinədək məcmu likvidlik boşluğuna malik olmuşdur. Rəhbərlik Bank müştərilərinin cari hesablarında kifayət qədər qalıq saxlayacaqlarnı düşünür. Bu fərziyyəni irəli sürərkən rəhbərlik müştərilərinin tarixi davranışını nəzərə almışdır.

Bank tərəfindən likvidlik riskinin idarə olunması üçün istifadə olunan əsas alətlər ARMB tərəfindən müəyyən edilmiş qaydalara əsasən likvidlik əmsalı və likvidliyin ötürülmə əmsalıdır (LCR). Bank ARMB-nin tələblərinə əsasən gündəlik əsasda bu məcburi likvidlik əmsallarını hesablamışdır. Bu əmsallar yüksək likvidli aktivlərin tələb əsasında ödəniləcək öhdəliklərə nisbəti kimi hesablanan ani likvidlik əmsalı və yüksək likvidli aktivlərin 30 gün ərzində cəmi xalis pul vəsaitlərinin hərəkətinə olan nisbəti kimi hesablanan likvidliyin ötürülmə əmsalı (LCR) əsasında təmsil olunur. Bank 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə bu əmsallara uyğun fəaliyyət göstərmişdir. Bu məcburi likvidlik əmsallarının hesablanması aşağıdakı kimi olmuşdur.

| | **Tələb** | **2025, % (audit olunmamış)** | **2024, % (audit olunmamış)** |
|---|---|---|---|
| Ani likvidlik əmsalı | 30%-dən az olmadan | 50.55% | 57.81% |
| Likvidliyin ötürülmə əmsalı | 100%-dən az olmadan | 137.3% | 219.70% |

**Əməliyyat riski**

Əməliyyat riski Bankın prosesləri, işçi heyəti, texnologiya və infrastrukturu ilə bağlı bir çox səbəblərdən, habelə kredit, bazar və likvidlik risklərindən başqa kənar faktorlardan, məsələn hüquqi və normativ tələblərdən və ümumi qəbul edilmiş korporativ davranış standartlarından irəli gələn birbaşa və dolayı zərər riskidir. Əməliyyat riskləri Bankın bütün əməliyyatlarından yaranır.

Bankın məqsədi əməliyyat riskini idarə etməklə, iqtisadi səmərəlilik və innovasiya vasitəsilə Bankın nüfuzuna qarşı ola biləcək hər hansı maliyyə zərərləri və ziyanın qarşısını almaqdır. Bütün hallarda Bankın siyasəti tətbiq olunan hüquqi və normativ tələblərə əməl etməyi tələb edir.

Bank rəhbərliyin öz əməliyyatlarının hər sahəsində zəruri hesab etdiyi daxili nəzarət sistemini qurmaqla əməliyyat riskini idarə edir.

## 31. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövrdə, regionda İranın iştirakı ilə silahlı münaqişə kəskinləşmişdir. Rəhbərlik regional sabitlik, ticarət axınları və qlobal enerji bazarlarına təsir edə biləcək vəziyyəti yaxından izləyir. Hesabat tarixində maliyyə hesabatlarında düzəliş edilməsini tələb edən hər hansı hal mövcud olmamışdır.